Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi
Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası

“İdmanın təkmübariz növləri” kafedrası

*Əlyazması hüququnda*

Gündüz İlqar Oğlu Rüstəmli

# Azərbaycan boksçularının Dünya Çempionatları və birinciliklərində müxtəlif yaş qrupları üzrə iştirakının müqayisəli təhlili

Magistr dərəcəsi almaq üçün təqdim edilmiş

D İ S S E R T A S İ Y A

İxtisasın şifri və adı-060802 Bədən tərbiyəsi və idman

İxtisaslaşma-İdman məşqinin nəzəriyyəsi və metodikası

Elmi rəhbər: B.ü.f.d. Rzayev Z.B.

Bakı – 2020

MÜNDƏRİCAT

GİRİŞ.........................................................................................................................3

I FƏSİL. BOKS ÜZRƏ DÜNYA ÇEMPİONATLARI HAQQINDA MƏLUMAT VƏ MÜSTƏQİLLİK DÖVRÜNDƏ AZƏRBAYCAN BOKSÇULARININ DÜNYA ÇEMPİONATLARI VƏ BİRİNCİLİKLƏRİNDƏ İŞTİRAKININ NƏTİCƏLƏRİ VƏ STATİSTİKASI.....................................................................5

1.1. Boks üzrə Dünya Çempionatları haqqında məlumat və Azərbaycan yığma komandasının iştirakı.............................................................................................5

1.2. Gənclərdən ibarət yığma komandanın Dünya Çempionatlarında iştirakı........24

1.3. Yeniyetmələrdən ibarət yığma komandanın Dünya Çempionatlarında iştirakı........................................................................................................................38

1.4. Qadınlardan ibarət yığma komandanın Dünya Çempionatlarında iştirakı.......53

II FƏSİL. Azərbaycan boksçularının Dünya Çempionatları və birinciliklərində müxtəlif yaş qrupları üzrə iştirakının müqayisəli təhlili..........................................57

2.1. Dünya Çempionatlarında iştirak etmiş kişilərdən ibarət yığma komandanın iştirakının müqayisəli təhlili.......................................................................................57

2.2. Dünya Çempionatlarında iştirak etmiş gənclərdən ibarət yığma komandanın iştirakının müqayisəli təhlili......................................................................................60

2.3. Dünya Çempionatlarında iştirak etmiş yeniyetmələrdən ibarət yığma komandanın iştirakının müqayisəli təhlili..............................................................63

2.4. Dünya Çempionatlarında iştirak etmiş qadınlardan ibarət yığma komandanın iştirakının müqayisəli təhlili.......................................................................................66

NƏTİCƏ....................................................................................................................68

ƏDƏBİYYAT............................................................................................................69

# GİRİŞ

Mövzunun problemi və aktuallığı. Azərbaycan SSRİ-nin tərkibində olduğu zaman bir çox idmançılarımız dünya arenalarına çıxa bilmirdilər. Bunun əsas səbəbi idmançılarımızın SSRİ Çempionatlarında sıxışdırılması idi. Bütün çətinliklərə sinə gərən idmançılarımız SSRİ Çempionatlarında qalib gəldikdən sonra da beynəlxalq yarışlarda SSRİ bayrağı altında çıxış edirdilər. Lakin, Azərbaycan 1991-ci ildə müstəqillik əldə etdikdən sonra bu sədd aradan qalxdı və idmançılarımız beynəlxalq yarışlarda, həmçinin Dünya, Avropa Çempionatlarında və Olimpiya Oyunlarında Azərbaycan bayrağı altında iştirak etməyə başladılar.

Qeyd edək ki, Azərbaycan boksçularının Dünya Çempionatları və birinciliklərində iştirakı haqqında olan məlumatlar sadəcə mətbuatda və kitablarda ayrı-ayrılıqda yazılmış və bununla kifayətlənmişdir, lakin, müqayisəli formada fərqli yaş qrupları ilə sistematik formada təhlil edilməmişdir. Bütün bunları nəzərə alaraq belə qənaətə gəlmək olar ki, mövcud dissertasiyanın tədqiqi aktual olduğu qədər də vacibdir.

Tədqiqatın məqsəd və vəzifələri. Magistr dissertasiyasının yazılmasında əsas məqsəd 1993-2019-cu illər ərzində Azərbaycanı Dünya Çempionatları və birinciliklərində təmsil edən müxtəlif yaş qrupları üzrə çıxış edən boksçuların iştirakı haqqında tarixi mənbələr və elmi ədəbiyyatlar əsasında təhlil etməkdir. Qarşıya qoyulan məqsədə uyğun olaraq aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur:

Mövzunun tədqiqat səviyyəsini müəyyən etmək;

Daha öncəki ədəbiyyatları və qaynaqları tədqiq etmək;

Mövzu ilə bağlı əldə edilən yeni faktları təhlil etmək.

Tədqiqatın metodları. Tədqiqat işində qarşıda duran vəzifələri həll etmək üçün aşağıdakı tədqiqat metodlarından istifadə olunması planlaşdırılmışdır:

- elmi-metodik ədəbiyyatın təhlili və ümumiləşdirilməsi
- video müşahidələr;
- riyazi statistikanın metodları.

Tədqiqatın obyekti. Fərqli yaş qrupları üzrə Azərbaycan boksçularının Dünya Çempionatları və birinciliklərində iştirakı.

Tədqiqatın predmenti. Fərqli yaş qrupları üzrə Azərbaycan boksçularının Dünya Çempionatları və birinciliklərində iştirakının müqayisəli təhlili.

Tədqiqatın fərziyyəsi və gözlənilən nəticə. Azərbaycan boks tarixinə həsr olunan tədqiqatların sayı olduqca azlıq təşkil edir. Fərqli yaş qrupları üzrə Azərbaycan boksçularının Dünya Çempionatları və birinciliklərində iştirakı tarixinə dair müqayisəli təhlil edilmiş, müstəqil və kompleks şəkildə yazılmış heç bir tədqiqat yoxdur. Mövcud dissertasiyada ilk dəfədir ki, fərqli yaş qrupları üzrə Azərbaycan boksçularının Dünya Çempionatları və birinciliklərində iştirakı tarixi müstəqil formada təhlil ediləcək. Bundan başqa dissertasiyanın elmi yeniliyi də budur ki, ilk dəfə olaraq fərqli yaş qrupları üzrə Azərbaycan boksçularının Dünya Çempionatları və birinciliklərində iştirakının müqayisəli göstəriciləri müvafiq sxem və diaqramlarla əyani şəkildə göstəriləcək. Tədqiqatdan əldə olunan nəticələrdən Azərbaycan idman tarixi ilə məşğul olan müstəqil tədqiqatçılar, boks mütəxəssisləri, peşəkar alimlər və tarixçilər, mövcud ixtisasla bağlı bakalavr və magistr təhsili alan tələbələr istifadə edə bilərlər.

Dissertasiyanın quruluşu. Dissertasiya giriş, iki fəsil, 10 diaqram, nəticələr və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

# I FƏSİL.
# BOKS ÜZRƏ DÜNYA ÇEMPİONATLARI HAQQINDA MƏLUMAT VƏ MÜSTƏQİLLİK DÖVRÜNDƏ AZƏRBAYCAN BOKSÇULARININ DÜNYA ÇEMPİONATLARI VƏ BİRİNCİLİKLƏRİNDƏ İŞTİRAKININ NƏTİCƏLƏRİ VƏ STATİSTİKASI

## 1.1. Boks üzrə Dünya Çempionatları haqqında məlumat və kişilərdən ibarət Azərbaycan yığma komandasının Dünya Çempionatlarındakı iştirakı

Boks üzrə Dünya Çempionatı boks idman növünün ən baxımlı, idmançılar və boks azarkeşləri tərəfindən maraqla gözlənilən, Beynəlxalq Həvəskar Boks Assosiasiyasının (AİBA) təşkilatçılığı ilə keçirilən boks üzrə həvəskar idman yarışıdır. Kişilər arasında ilk Çempionat Kubanın Havana şəhərində 1974-cü il 17-30 Avqust tarixlərində keçirilmişdir.

Boks idmanının rəhbər orqanı olan Beynəlxalq Boks Assosiasiyası (AİBA) digər yaş qrupları üçün təşkil edilmiş Dünya Çempionatları və Birinciliklərinə də başçılıq edir. AİBA Gənclərin Boks üzrə Dünya Çempionatları 1979-cu ildə Yaponiyanın Yokohama şəhərində başlamış və 1990-cı ildən bəri iki ildən bir təşkil edilir. AİBA Yeniyetmələrin Boks üzrə Dünya birincilikləri ilk dəfə 2001-ci ildə Azərbaycanın paytaxtı Bakı şəhərində keçirilmişdir və 2007-ci ildən bəri iki ildən bir keçirilir. Qadınlar arasında boks üzrə dünya Çempionatları isə 2001-ci ildən bəri keçirilir.

İndiyədək kişilər arasında 20 Dünya Çempionatı, Gənclər arasında 20 Dünya Birinciliyi, Yeniyetmələr arasında 10 Dünya Birinciliyi, Qadınlar arasında isə 11 Dünya Çempionatı keçirilib.

Azərbaycan yığma komandasının boks üzrə VII Dünya Çempionatında iştirakı. 1991-ci ildə Sovet İttifaqından suverenliyini qazanan Azərbaycan boksçuları birinci dəfə 1993-cü ilin 7-16 May tarixləri arasında Finlandiyanın Tampere şəhərində baş tutan boks üzrə VII Dünya Çempionatına qatıldı. Finlandiyanın Tampere şəhərində baş tutan yarışa qatılan Azərbaycan yığma komandası Dünya Çempionatını medalsız başa vurdu.

51 kiloqram çəki dərəcəsində yarışan Lernik Hüseynov mübarizəyə 1/16 final mərhələdə qoşuldu. Bu mərhələdə Hüseynov Kuba boksçusu Valdemar Font ilə qarşılaşdı və rəqibinə 5:15 hesabı ilə uduzdu. 51 kiloqram çəki dərəcəsində VII Dünya Çempionatının qızıl medalını isə məhz elə Valdemar Font qazandı.

71 kiloqram çəki dərəcəsində çıxış edən Ədalət Ağayev isə yarışların startında İsveç nümayəndəsi Vael Haddadı 17:7 hesabı ilə məğlub etdi. Növbəti, 1/4 final mərhələsinə Ağayev Norveç boksçusu Qeir Hitlandla gərgin görüşün sonunda 4:7 hesabı ilə uduzdu və Dünya Çempionatında medalın bir addımlığında mübarizəni dayandırdı.

91+ kiloqram çəki dərəcəsində mübarizə aparan Ədalət Məmmədovda Ədalət Ağayevin aqibəti ilə üzləşdi. Məmmədov birinci görüşdə Finlandiya boksçusu Mika Kilstroemi məğlub etsə də, 1/4 final mərhələdə Birləşmiş Ştatların nümayəndəsi Jo-El Skota uduzdu və Dünya Çempionatında medalın bir addımlığında mübarizəni dayandırdı. (1)

Azərbaycan yığma komandasının VIII Dünya Çempionatında iştirakı. Azərbaycan komandası ikinci dəfə qatıldığı 1995-ci ilin 6-14 May tarixləri arasında Almaniyanın paytaxtı Berlin şəhərində baş tutan boks üzrə Dünya Çempionatında da medal qazana bilmədi.

51 kiloqram çəki dərəcəsində yarışan Fuad Aslanov yarışa 1/16 mərhələdə qoşuldu. Bu mərhələdə Fuad Aslanov Çexiya boksçusu Hensz ilə qarşılaşdı və rəqibinə 2:12 hesabı ilə uduzdu.

57 kiloqram çəki dərəcəsində yarışan Vüqar Məmmədov yarışa 1/16 mərhələdə qoşuldu. Bu mərhələdə Məmmədov Almaniya boksçusu Falk Huste ilə qarşılaşdı və rəqibə 1:10 hesabı ilə məğlub oldu.

71 kiloqram çəki dərəcəsində çıxış edən Əli İsmayılov isə yarışların startında Finlandiya boksçusu Peraejokini 12:8 hesabı ilə məğlub etdi. Növbəti 1/8 final mərhələdə İsmayılov Ukrayna boksçusu Oleq Kudinova 7:8 hesabı ilə uduzur.

75 kiloqram çəki dərəcəsində mübarizə aparan İslam Nurqudayev Ermənistan boksçusu Mxitar Vanesyan ilə qarşılaşdı və 3:9 hesabı ilə məğlub oldu.

81 kiloqram çəki dərəcəsində çıxış edən Ramal Tağıyev mübarizəyə 1/16 mərhələdə qoşuldu. Tağıyev Kanada boksçusu Troy Amos Ross ilə qarşılaşır və texniki məğlubiyyətlə üzləşir. (2)

Azərbaycan yığma komandasının IX Dünya Çempionatında iştirakı. 1997-ci il IX Boks üzrə Dünya Çempionatı Macarıstanın Budapeşt şəhərində 18-26 Oktyabr tarixində keçirilmişdir. Bu yarışda Azərbaycan boksçuları çıxış etməmişdilər.

Azərbaycan yığma komandasının X Dünya Çempionatında iştirakı. Azərbaycan yığma komandası 1999-cu il 20-27 Avqust tarixləri arasında ABŞ-ın Hyuston şəhərində keçirilən yarışlara qatıldı.

63,5 kiloqram çəki dərəcəsində çıxış edən Sahib Bağırov mübarizəyə 16\1 mərhələdə qoşuldu. Bu mərhələdə Bağırov İngiltərə boksçusu olan Nigel Rayt ilə mübarizə apararaq 18:1 hesabı ilə qələbə qazandı. Növbəti , 8\1 final mərhələdə Çexiya boksçusu Lukas Koneçniyə 0:5 hesabı ilə məğlub olur.

81 kiloqram çəki dərəcəsində yarışan Əli İsmayılov 8/1 final mərhələdə avstriyalı rəqibi Zdravomi Dimitriyeviç ilə mübarizə aparır və 6:4 hesabı ilə qalib gəlir. 4/1 final mərhələdə isə İsmayılov Macarıstan boksçusu Giorgi Hidvegi ilə qarşılaşır və 7:6 hesabı ilə məğlub edir. Yarım final mərhələdə İsmayılov Amerika boksçusu Michael Simms ilə qarşılaşır və 5:7 hesabı ilə uduzaraq bürünc medala sahib olur. (3)

Azərbaycan yığma komandasının XI Dünya Çempionatında iştirakı. 2001-ci il iyunun 3-10 arasında Şimali İrlandiyanın Belfast şəhərində keçirilən yarışda Azərbaycan yığma komandası uğursuz çıxış etdi.

57 kiloqram çəki dərəcəsində çıxış edən Rövşən Hüseynov mübarizəyə 16\1 mərhələdə qoşuldu. Bu mərhələdə boksçumuz yunanıstanlı boksçu Boris Georgiadis ilə döyüşür və 12:10 hesabı ilə məğlub olur.

60 kiloqram çəki dərəcəsində çıxış edən Fərhad Acalov mübarizəyə 16/1 mərhələdə qoşuldu. Litvadan olan boksçu Vidas Biciulaitis boksçumuzun qarşısını kəsir. Hesab 20:12 Litva boksçusunun xeyrinə başa çatdı.

63.5 kiloqram çəki dərəcəsində çıxış edən Nəsimi Aydınov mübarizəyə 16/1 mərhələdə qoşuldu. Meksika komandasının boksçusu Luis Ramirez ilə döyüşdü və təmiz qələbə ilə qalib gəldi. 8\1 final mərhələdə erməni boksçu Artur Qevorqyan ilə qarşılaşan idmançımız 11:11 hesabla bitən qarşılaşmada hakimlərin qərarı ilə qalib gəldi və 4\1 final mərhələsinə adladı. Medalın bir addımlığında kubalı boksçu Diogenes Luna ilə qarşılaşmada məğlub olaraq mübarizəni dayandırdı.

67 kiloqram çəki dərəcəsində çıxış edən Sahib Bağırov mübarizəyə 32/1 mərhəldə qoşuldu. İsveçrəli boksçu Benjamin Kalinoviç ilə döyüşərək 7:2 hesabı ilə qalib gəldi. Növbəti, 16\1 mərhələdə türkiyəli boksçu Firat Karaoğullu ilə qarşılaşan Sahib Bağırov 9:14 hesabı ilə məğlub olaraq mübarizəni dayandırdı.

71 kiloqram çəki dərəcəsində çıxış edən Cavid Tağıyev mübarizəyə 16/1 mərhələdə qoşulur. Çexiyalı boksçu Mişel Bilak ilə mübarizə apararaq 4:18 hesabı ilə məğlub oldu.

75 kiloqram çəki dərəcəsində yarışan Vüqar Ələkbərov 16\1 final mərhələdən yarışa qoşulur və bu mərhələdə ingilis boksçu Karl Froça 21:12 hesabı ilə məğlub olaraq mübarizəni dayandırdı.

81 kiloqram çəki dərəcəsində çıxış edən Əli İsmayılov da mübarizəyə 16/1 mərhələdə qoşuldu. Meksikalı boksçu Ramiro Reducindo ilə döyüşdə 10:4 hesabı ilə qalib gəlsə də, 8\1 final mərhələdə belarusiya boksçusu Maqomed Arifhacıyev ilə qarşılaşmada 7:14 hesabı ilə məğlub olaraq Çempionatla vidalaşdı. (4)

Azərbaycan yığma komandasının XII Dünya Çempionatında iştirakı. Azərbaycan 2003-cü il 6-12 iyul tarixləri arasında Taylandın Banqkok şəhərində keçirilən yarışa qatıldı.

48 kiloqram çəki dərəcəsində yarışan Ceyhun Əbiyev 16\1 final mərhələdə Özbəkistan boksçusu Otabek Məmmədcanov üzərində 31:12 hesablı parlaq qələbə qazanır. 8\1 final mərhələyə adlayan Əbiyev bolqar boksçu Səlim Səlimovu da 27:24 hesabı ilə məğlub etsə də 4\1 final mərhələdə pakistanlı boksçu Kərim Noumana 19:15 hesabı ilə məğlub olur və yarışdan medalsız qayıdır.

54 kiloqramda yarışa yollanan Azərbaycan boksçusu Ağası Məmmədov ilk mərhələdə Makao boksçusu Lei Van Kun üzərində 23:2 hesabı ilə, 8\1 final

mərhələdə kubalı Gilyermo Riqondo üzərində 16:13 hesabı ilə, 4\1 final mərhələdə tacik boksçu Sohib Usarov üzərində 18:10 hesabı ilə, yarım finalda bolqarıstanlı Detelin Dalakiyev üzərində 21:12 hesabı ilə qələbə qazanaraq Dünya Çempionatının final mərhələsinə adladı. Finalda boksçumuzun rəqibi rusiyalı Qennadi Kovalyov idi. Ağası Məmmədov bütün yarış boyu göstərdiyi yüksək ustalığını bu görüşdə də göstərərək rəqibini 17:8 hesabı ilə məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxdı və Tailandda keçirilən Boks üzrə Dünya Çempionatında Azərbaycan himnini səsləndirdi.

57 kiloqram çəki dərəcəsində döyüşən Rövşən Hüseynov 16\1 mərhələdə macarıstanlı boksçu Henrik Kertesz ilə görüşü 11:11 hesabı ilə bitdi. Lakin hakimlər üstünlüyü rəqib boksçuya verməklə Rövşən Hüseynovu yarışdan kənarlaşdırdılar.

60 kiloqram çəki dərəcəsində yarışan Fərhad Acalov da ilk mərhələdə mübarizəni dayandırdı. O, koreyalı boksçu Jong-Sub Baikə 29:12 hesabı ilə məğlub oldu.

64 kiloqramda çıxış edən Tofiq Əhmədov 16\1 final mərhələdə ispaniyalı boksçu Jose Qutierez Alonsonu təmiz qələbə ilə məğlub etdi. 8\1 final mərhələdə hindistanlı Venkateje Harikrişan üzərində 17:10 hesabı ilə qələbə qazanaraq 4\1 final mərhələsinə keçdi. Bu mərhələdə argentinalı boksçu Markos Maidanaya 36:28 hesabı ilə qalib gəlsə də yarım finalda fransız Villi Bleynə 13:25 hesabı ilə məğlub olaraq yarışı bürünc medalla tamamladı.

69 kiloqram çəki dərəcəsində çıxış edən Ruslan Xairov 16\1 final mərhələdə gürcü boksçu Robert Plievi texniki nokautla mübarizədən kənarlaşdırdı. 8\1 final mərhələdə Yeni Zellandiya boksçusu Kahukura Bentson da boksçumuza 22:6 hesabı ilə məğlub oldu. 4\1 final mərhələdə Ruslan Xairovun rəqibi rusiyalı Andrey Mişin idi. Xairov onu da 18:11 hesabı ilə məğlub etsə də yarım finalda olan rəqibi özbəkistanlı Şerzod Hüseynova 6:29 hesabı ilə məğlub olaraq bürünc medalla kifayətləndi.

75 kiloqramda çıxış edən boksçumuz Cavid Tağıyev ilk mərhələdə macarıstanlı Koroli Balzsaya 20:13 hesabı ilə qalib gəldi. Lakin 8\1 final mərhələdə

boksçumuzun qarşısını özbəkistanlı Utkirbek Haydarov kəsdi. O boksçumuz üzərində 25:14 hesablı qələbə qazandı.

81 kiloqram çəki dərəcəsində yarışan Əli İsmayılov ilk görüşdə, 16\1 final mərhələdə Qazaxıstan boksçusu Beybut Şumenovla qarşılaşmada məğlub oldu.

91 kiloqram çəki dərəcəsində çıxış edən Vüsal Amanov 16\1 final mərhələdə Litva boksçusu Vitalius Subakiusa 23:5 hesabı ilə məğlub oldu. (5)

Azərbaycan yığma komandasının XIII Dünya Çempionatında iştirakı. 2005-ci il Noyabrın 13-dən 20-dək Dünya Çempionatı Çin Xalq Respublikasının Myanyanq şəhərində keçirildi.

48 kiloqram çəki dərəcəsindəki təmsilçimiz Ceyhun Əbiyev 16\1 final mərhələdən yarışlara qoşuldu və ilk tur uğurlu alındı, belə ki, o, Özbəkistan boksçusu Fazul Fayziyevi 16:9 hesabı ilə məğlub etdi. Növbəti mərhələdə Qazaxstan boksçusu ilə qarşılaşan Ceyhun Əbiyev 32:17 hesabı ilə məğlub oldu.

51 kiloqram çəki dərəcəsində çıxış edən Samir Məmmədov 32\1 final mərhələdə Qırğızıstan boksçusu Tilek Saparbekulu ilə qarşılaşmadan 32:18 hesabı ilə qalib ayrıldı. 16\1 final mərhələdə Samir Məmmədov İtaliya boksçusu Vinçenzo Pikardi üzərində 36:19 hesabı ilə qələbə qazandı. 8\1 final mərhələdə isə Dominikan Respublikası boksçusu Xuan Karlos Payano ilə qarşılaşan idmançımız 36:26 hesabı ilə məğlub oldu.

54 kiloqram çəki dərəcəsində yarışan idmançımız da yarışlara 32\1 final mərhələdən qoşuldu. Elşən İsmayılov ilk turda Şimali Koreya təmsilçisi Kim Von Quka 39:25 hesabı ilə məğlub oldu.

57 kiloqram çəki dərəcəsində iştirak edən Şahin İmranov 16\1 finalda almaniyalı boksçu Andreas Propa 15:10 hesabı elə məğlub olaraq mübarizəni dayandırıb.

60 kiloqram çəki dərəcəsində çıxış edən boksçumuz Romal Amanov 16\1 finalda İordaniya boksçusu Fərəc Əl Matbuli Dərviş üzərində təmiz qələbə ilə qalib gəldi. Növbəti mərhələdə Amanov argentinalı rəqibi Xesus Cueaları da təmiz qələbə ilə məğlub edib. 4\1 final mərhələdə polşalı rəqibi Krzysztov Szota 30:17 hesabı ilə qalib gələn Romal Amanov yarımfinala vəsiqə qazanıb. Bu mərhələdə italiyalı

boksçu Domeniko Valentinonu 29:22 hesabı ilə məğlub edərək Dünya Çempionatının final mərhələsinə vəsiqə qazanıb. Qızıl medalın bir addımlığında onun qarşısını yalnız Kuba boksçusu Yordenis Ugas ala bilib. Görüşün nəticəsi 42:28 kubalının xeyrinə olub. Beləliklə, Romal Amanov Dünya Çempionatının gümüş medalına yiyələnib.

64 kiloqram çəki dərəcəsində yarışan boksçumuz Emil Məhərrəmov ardıcıl olaraq 16\1 finalda Fransa boksçusu Adriani Vastineni 29:15 hesabı ilə, 8\1 finalda xorvat boksçu Boris Kataliniçi 27:9 hesabı ilə, 4\1 finalda braziliyalı Mayk Carvalyonu 28:19 hesabı ilə məlub edərək yarım finala vəsiqə qazanıb. Bu mərhələdə Qazaxıstan boksçusu Serik Sapiyevə 41:23 hesabı ilə məğlub olan Məhərrəmov Dünya Çempionatını bürünc medalla başa vurub.

69 kiloqram çəkidə çıxış edən Ruslan Xairov ilk mərhələdə məğlub oldu. 18:14 hesabı ilə bitən qarşılaşmada Ruslan Xairovun rəqibi türkiyəli boksçu Bülənt Ulusoy olub.

75 kiloqram çəki dərəcəsində vuruşan həmyerlimiz Cavid Tağıyev 16\1 final mərhələdə Rumıniya boksçusu Ronald Qavril üzərində 25:14 hesabı ilə qələbə qazanıb. Növbəti mərhələdə Qətər boksçusu Nabah Hzam üzərində 37:15 hesabı ilə qalib olan Cavid Tağıyev 4\1 finala vəsiqə qazanıb. Medalın bir addımlığında dayanan boksçumuz Misir idmançısı Məhəmməd Hikala 34:20 hesabı ilə məğlub olaraq yarışı medalsız başa vurub.

81 kiloqram çəkidə yarışan Anar Mirzəyev ilk mərhələdə Avstraliya boksçusu Ben Makeçrana məğlub olaraq yarışdan kənarda qalıb.

91 kiloqrama qədər olan boksçuların yarışında çıxış edən Elçin Əlizadə ilk mərhələdə türkiyəli boksçu Gökhan Acar ilə görüşdə sonuncunun döyüşdən imtina etməsi nəticəsində qalib gəlib. 8\1 finalda rəqibi ingilis David Dolan üzərində təmiz qələbə qazanan Elçin Əlizadə 4\1 final mərhələdə Qırğızıstan boksçusu Ruslan Mirsatayevi 29:22 hesabı ilə məğlub edərək yarımfinala vəsiqə qazanıb. Bu mərhələdə də özbək Cəsur Matçanov üzərində 25:19 hesabı ilə qələbə qazanan idmançımız finala adlayıb. Yalnız bu mərhələdə uğur qazana bilməyən Elçin

Əlizadə rusiyalı Aleksandr Alekseyevə məğlub olaraq dünya Çempionatının gümüş medalına yiyələndi.

91+ kiloqram çəki dərəcəsində iştirak edən Vüqar Ələkbərov mübarizəyə 8\1 final mərhələdən qoşuldu və Çin idmançısı Jan Jiley adlı boksçuya 20:11 hesabı ilə məğlub oldu. (6)

Azərbaycan yığma komandasının XIV Dünya Çempionatında iştirakı. 2007-ci il 23 Oktyabr-3 Noyabr tarixində Dünya Çempionatı ABŞ-ın Çikaqo şəhərində baş tutdu. Əvvəlcə turnirin Moskvada keçirilməsi planlaşdırılırdı, ancaq AİBA turnirinin başlamasından bir neçə həftə əvvəl Rusiyanın Boks Federasiyasına Moskvanın turnirə hazırlaşmadığını əsas gətirərək turnirin ABŞ-a verilməsi barədə məlumat verdi. Turnirin ABŞ-a təhvil verilməsi ən güclü boks komandalarından biri olan Kuba komandasının turnirdə iştirakdan imtina etməsi ilə nəticələndi. Beləliklə, medal hesabında birinci yeri Rusiya komandası qazandı.

48 kiloqram çəki dərəcəsində yarışan Ceyhun Əbiyev ilk görüşdə Ukrayna boksçusu Georgi Çeqayevə 34:21 hesabı ilə məğlub oldu.

51 kiloqram çəki dərəcəsində yarışan Samir Məmmədov ilk görüşdə ispan Xuan Padillaya təmiz qələbə ilə qalib gəldi. 16/1 finalda Tay-Pey idmançısı Li Çu Fengi təmiz qələbə ilə məğlub etdi və 8/1 final mərhələsinə yüksəldi. Bu turda Tacikistan bokçusu Ənvər Yunusovu da 23:13 hesabı ilə məğlub etdi və 4/1 finala vəsiqə qazandı. 4/1 final mərhələdə Puerto Riko idmançısı Makvilliams Arroyonu 33:21 hesabı ilə məğlub etdi. Yarım final mərhələdə amerikalı boksçu Ruşi Vorron ilə qarşılaşan Samir Məmmədov bu görüşü 26:13 hesabı ilə məğlub olaraq Dünya Çempionatının bürünc medalını qazandı. Bu həmdə yığma komandanın XIV Dünya Çempionatında yeganə medalı oldu.

54 kiloqram çəki dərəcəsində çıxış edən boksçumuz Elşən İsmayılov 32/1 final mərhələdə venesuelalı boksçu Hektor Manzanillaya 33:17 hesabı ilə məğlub oldu.

57 kiloqram çəki dərəcəsində yarışan həmyerlimiz Şahin İmranov ilk turda Qana boksçusu İssa Samiri 24:9 hesabı ilə məğlub edərək 16/1 final mərhələyə vəsiqə qazandı. Bu mərhələdə idmançımızın rəqibi latviyalı Valentins Morozovs

oldu. Sonuncunun döyüşdən imtina etməsi idmançımızı növbəti mərhələyə çıxardı. 8/1 finalda Hindistan bokçusu Antreş Lalit Lakraya 15:9 hesabı ilə məğlub olan Şahin İmranov Dünya Çempionatını medalsız tərk etdi.

60 kiloqram çəki dərəcəsində Romal Amanov 32/1 final mərhələdə fransalı Davuda Sou üzərində 19:6 hesablı qələbə qazandı. Növbəti mərhələdə Rumıniya boksçusu Trian Lupunu da 20:13 hesabı ilə məğlub etdi. 8/1 finalda isə boksçumuzun rəqibi İngiltərə boksçusu Franki Qavin oldu. Görüş İngiltərə təmsilçisinin 21:10 hesablı qələbəsi ilə başa çatdı.

64 kiloqram çəki dərəcəsində yarışan Emil Məhərrəmov Türkmənistan idmançısı Berdimurad Saxatov üzərində 21:16 hesablı qələbədən sonra 16/1 final mərhələdə Amerika idmançısı Xavier Molinaya 27:10 hesabı ilə məğlub oldu və mübarizədən kənarda qaldı.

69 kiloqram çəki dərəcəsində vuruşan Ruslan Xairov ilk mərhələdə Macarıstan boksçusu Nobert Harcsanı 20:9 hesabı ilə, 16/1 final mərhələdə irlandiyalı Roy Şehanı 20:3 hesabı ilə məğlub etsə də, 8/1 final mərhələdə Çin idmançısı Henati Silamuya 26:6 hesabı ilə məğlub olub mübarizədən kənada qaldı.

75 kiloqramda yarışan idmançımız Rahib Bəylərov ilk görüşdə belarus Vitali Bondarenkonu 21:11 hesabı ilə məğlub etdi. 16/1 final mərhələsinə yüksələn Rahib Bəylərov bu turda Dominikan Respublikası idmançısı Arqeniz Nunezə 27:16 hesabı ilə məğlub oldu.

81 kiloqram çəki dərəcəsində yarışan həmyerlimiz Cavid Tağıyev 16/1 final mərhələdə xorvat boksçu Mariyo Sivolijaya 18:15 hesabı ilə məğlub oldu.

91 kiloqram çəki dərəcəsində yarışan və Dünya Çempionatına 16/1 final mərhələdən qoşulan Elçin Əlizadə ilk görüşdə Kolumbiya boksçusu Deyvis Culionu təmiz qələbə ilə, növbəti mərhələdə Ukrayna boksçusu Denis Poyatsikanı 21:8 hesabı ilə məğlub etdi. 4/1 final mərhələsinə vəsiqə qazanan idmançımız bu turda rusiyalı Rəhim Çakiyevə 17:6 hesabı ilə məğlub olaraq medalın bir addımlığında mübarizəni dayandırdı.

91+ kq çəki dərəcəsində yarışan həmyerlimiz Azər Məmmədov ilk görüşdə Amerika Vircin Adaları təmsilçisi Cleyton Loreni təmiz qələbə ilə məğlub edərək

8/1 final mərhələsinə adladı. Bu mərhələdə rusiyalı İslam Timurziyevlə qarşılaşma sonuncunun qələbəsi ilə yekunlaşdı. (7)

Azərbaycan yığma komandasının XV Dünya Çempionatında iştirakı. 2009-cu il Sentyabrın 1-12 arasında Dünya Çempionatı İtaliyanın Milan şəhərində keçirildi. AİBA bu yarışa xüsusi hazırlaşmışdı. Təsadüfi deyil ki, mundial iştirakçıların sayına görə, rekordla yadda qaldı. Azərbaycan milli komandası İtaliyaya gənc heyətlə yollanmışdı. Azərbaycan boksunda nəsildəyişmə prosesi getmiş və bir çox adlı-sanlı dəri əlcək ustalarımız karyeralarını başa vurmuşdular. Məşqçilər korpusu daha çox 3 təcrübəli idmançıya – Romal Amanov, Emil Məhərrəmov və Elçin Əlizadəyə ümid edirdi. Ancaq Amanov birinci mərhələdə, Əlizadə ilə Məhərrəmov isə ikinci mərhələdə uduzaraq, mübarizəni dayandırdılar. Komandamız Milandakı Dünya Çempionatını medalsız başa vurdu.

48 kiloqram çəki dərəcəsində Elvin Məmişzadə 32/1 final mərhələdə hindistanlı Nanao Sinxə 21:6 hesabı ilə məğlub oldu.

51 kiloqram çəki dərəcəsində yarışan Nihat Seyidov da ilk turda İtaliya boksçusu Vinçenzo Pikardiyə 17:2 hesabı ilə məğlub oldu.

54 kiloqram çəki dərəcəsində yarışan Rəhim Nəcəfov da uğursuz çıxışı ilə yadda qaldı. O, irlandiyalı idmançı Jon Jo Nevinlə qarşılaşmadan 19:4 hesablı məğlubiyyətlə ayrıldı.

57 kiloqram çəki dərəcəsində yarışan həmyerlimiz İlkin Ağayev 32/1 final mərhələdə Ekvador təmsilçisi ilə 5:5 hesablı bərabərlik qazansa da, hakimlər qələbəni ekvadorlu Luiz Poronzoya verdi.

60 kiloqram çəki dərəcəsində döyüşən Ruslan Qasımov Braziliya idmançısı Everton Lopezə 10:2 hesabı ilə məğlub olaraq Dünya Çempionatı ilə vidalaşdı.

64 kiloqram çəki dərəcəsində yarışan və yarışlara 16/1 final mərhələdən qoşulan Romal Amanov ilk görüşdə fransız Aleksiz Vastinlə qarşılaşmadan 15:7 hesablı məğlubiyyətlə ayrıldı.

69 kiloqram çəki dərəcəsində yarışan təcrübəli Emil Məhərrəmov isə Qana boksçusu Habibu Əhmədi 17:5 hesabı ilə məğlub edərək 16/1 final mərhələsinə

vəsiqə qazandı. Bu mərhələdə Qazaxıstan boksçusu Serik Sapiyevlə görüşdən təmiz qələbə qərarı ilə məğlub ayrıldı.

75 kiloqramda yarışan Fərid Ağayev 32/1 final mərhələdə xorvat Stipica Berkaloya 11:8 hesabı ilə məğlub oldu.

81 kiloqram çəki dərəcəsində yarışan Elnur Qədirov Litva idmançısı Daugirdas Semiotasla döyüşü 9:5 hesablı məğlubiyyətlə bitirdi.

91 kiloqram çəki dərəcəsində yarışan daha bir təcrübəli boksçu Elçin Əlizadə 32/1 final mərhələdə Cənubi Afrika təmsilçisi Mosana Monqanyi ilə qarşılaşmada disklifikasiya qərarı ilə qalib gəlsədə növbəti mərhələdə rusiyalı Yeqor Mexontsevə 10:0 hesabı ilə məğlub olaraq Dünya Çempionatını medalsız tərk etdi.(8)

Azərbaycan yığma komandasının XVI Dünya Çempionatında iştirakı. 2011-ci ilin sentyabrın 26-dan oktyabrın 8-dək Dünya Çempionatı Bakıda Heydər Əliyev adına İdman-Konsert Kompleksində keçirilmişdir. AİBA himayəsi altında təşkil edilən həvəskar boks üzrə Dünya Çempionatı ilk dəfə olaraq çox sayda iştirakçı topladı. Dünya Çempionatlarında əvvəlki rekord 2009-ci ildə Milanda (İtaliya) qeydə alınmışdır. XVI Dünya Çempionatında 127 ölkədən 685 boksçu 2012-ci il Yay Olimpiya Oyunlarına qatılmaq üçün lisenziyalar üçün mübarizə apardı.

49 kiloqram çəki dərəcəsində çıxış edən Salman Əlizadə 16\1 final mərhələdə Mərakeş idmançısı Abdeləli Darranı 16:12 hesabı ilə məğlub edərək növbəti mərhələyə vəsiqə qazandı. Bu mərhələdə Tailand boksçusu Kaev Ponqprayon Salman Əlizadə üzərində 23:8 hesabı ilə qələbə qazanaraq idmançımızı Dünya Çempionatından uzaqlaşdırdı.

52 kiloqram çəki dərəcəsində yarışlara qatılan Elvin Məmişzadə 32\1 final mərhələdə İndoneziya boksçusu Julio Bria üzərində 19:8 hesablı qələbə qazandı. 16\1 finalda boksçumuzun rəqibi ispan Fransesko Torrios oldu. Məmişzadə ispan boksçunu 21:15 hesabı ilə məğlub etdi. Növbəti turda Monqolustan təmsilçisi Tuqstsoqt Nyambayarı 17:14 hesabı ilə məğlub edərək 4\1 final mərhələsinə adladı. Bu mərhələdə Elvin Məmişzadə təcrübəli Rusiya boksçusu Mixail Aloyana 14:12 hesablı kiçik fərqlə məğlub olaraq medal qazana bilmədi.

56 kiloqram çəkidə vuruşan Rəhim Nəcəfov İngiltərə təmsilçisi Luk Kampbelə 17:7 hesabı ilə məğlub oldu və 16\1 final mərhələsinə vəsiqə qazana bilmədi.

60 kiloqram çəki dərəcəsində çıxış edən Elvin İsayev 32\1 finalda isveç rəqibi Reduan Kayanı 15:8 hesabı ilə məğlub etdi. 16\1 final mərhələdə Tacikistan təmsilçisi Madadi Naqzibekovla qarşılaşan Elvin İsayev bu görüşdən 15:23 hesablı məğlubiyyətlə ayrıldı.

64 kiloqram çəki dərəcəsində Heybətulla Hacıəliyev Misir boksçusu Eslam Aly üzərində 15:7 hesablı qələbə qazanaraq 16\1 finala adladı. Bu mərhələdə gürcüstanlı Koba Pxakadze ilə görüşdə 18:15 hesablı qələbə qazanan boksçumuz 8\1 final mərhələdə özbəkistanlı Sanjarbek Rahmonov üzərində də 33:22 hesablı qalibiyyətə sevindi. 4\1 finalda Heybətulla Hacıəliev Ukrayna boksçusu Denis Berinçiklə döyüşdü. Görüşün nəticəsi sonuncunun 33:19 hesabı ilə qələbəsini rəsmiləşdirdi. Beləliklə, Heybətulla Hacıəliyev də medalın bir addımlığında mübarizəni dayandırdı.

69 kiloqram çəki dərəcəsində yarışan Emil Əhmədov ilk görüşünü italyan Danilo Kreatiyə qarşı keçirtdi. Bu görüş İtaliya təmsilçisinin 19:13 hesablı qələbəsi ilə başa çatdı.

81 kiloqram çəki dərəcəsində Ramil Əliyev 16\1 finald Türkmənistan boksçusu Rəsul Yuldaşev üzərində 23:6 hesablı qələbə qazandı. 8\1 final mərhələsinə vəsiqə qazanan idmançımız bu turda ukraynalı Aleksandr Qvozdiklə qarşılaşmada 17:15 hesablı məğlubiyyətlə üzləşdi.

91 kiloqram çəki dərəcəsində vuruşan Teymur Məmmədov 16\1 finalda Barbados təmsilçisi Anderson Emanuellə qarşılaşmadan 23:7 hesablı qələbə ilə ayrıldı. 8\1 final mərhələdə macarıstanlı Jozef Darmosla görüşdən 24:9 hesablı qələbə ilə ayrılaraq adını 4\1 final mərhələsinə yazdırdı. Bu turda Teymur Məmmədov kubalı boksçu Xose Larduet üzərində 24:20 hesablı qələbə qazandı. Yarım final mərhələdə çinli Vanq Xuanxuan üzərində qələbə qazanan Teymur Məmmədov Dünya Çempionatının Finalına vəsiqə qazandı. Finalda boksçumuz

Ukraynanın ən tanınmış boksçularından biri olan Aleksandr Usikə 25:15 hesabı ilə məğlub olaraq Boks üzrə XVI Dünya Çempionatının gümüş medalına yiyələndi.

91+ kiloqram çəki dərəcəsində yarışan Məhəmmədrəsul Məcidov əvvəlcə 16\1 finalda Özbəkistan boksçusu Sərdor Abdullayev üzərində təmiz qələbə ilə, 8\1 final mərhələdə İssias Menanı təmiz qələbə ilə, 4\1 final mərhələdə kubalı Erislandi Savonu təmiz qələbə ilə, yarım finalda isə qazaxıstanlı İvan Diçko üzərində 16:9 hesabı ilə qalib gəlməklə finala vəsiqə qazandı. Bu mərhələdə Məhəmmədrəsul Məcidovun rəqibi sonralar peşəkar boks üzrə ağır çəkili boksçular arasında Dünya Çempionu olacaq Entoni Coşua idi. Görüş gərgin şəraitdə və böyük baxımlılıqla keçdi və Məhəmmədrəsul Məcidovun 22:21 hesablı qələbəsi ilə başa çatdı. Beləliklə, Məhəmmədrəsul Məcidov XVI Boks üzrə Dünya Çempionu adını qazandı. (9)

Azərbaycan yığma komandasının XVII Dünya Çempionatında iştirakı. 2013-cü ildə 14-26 oktyabr tarixləri arasında Qazaxıstanın Almatı şəhərində Boks üzrə növbəti Dünya Çempionatı keçirildi. Qazaxıstanın böyüklər arasında 2013-cü il Dünya Boks Çempionatını keçirmək təklifini yekdilliklə dəstəklədi. Əvvəlcə Çempionatın Astanada keçirilməsi planlaşdırılırdı, ancaq 28 avqust 2012-ci ildə ALE İcraiyyə Komitəsinin Qazaxıstan Boks Federasiyasındakı iclasında təşkilatın prezidenti Timur Kulibayev dedi ki, "Dünya Çempionatı Almatıda keçiriləcək, çünki bu çox böyük bir hadisədir və biz də bunu çox yüksək səviyyədə keçirməyə qadirik”. (10) İcraiyyə Komitəsi Qazaxıstan Boks Federasiyasından Astananın 2013-cü ildə AİBA Dünya Boks Çempionatının rəsmi məkanı olması barədə rəsmi müraciət aldı. Bütün vədləri və bu yarışlara hazırlıq proqramını dinləyən İcraiyyə Komitəsi yekdilliklə Qazaxıstana bu Dünya Çempionatını keçirmək imkanı verməyə səs verdi.

49 kiloqram çəki dərəcəsində yarışan Salman Əlizadə 16/1 final mərhələdə Bolqarıstan təmsilçisi Georgi Andonovu 3:0 hesabı ilə məğlub etdi, 8/1 final mərhələdə isə Koreya idmançısı Kim İn-Kyu ilə döyüşdə hər üç raundda məğlub olaraq yarışla vidalaşdı.

52 kiloqram çəki dərəcəsində döyüşən Elvin Məmişzadə 16/1 final mərhələdə venesuelalı Eduard Bermudezi 2:1 hesabı ilə məğlub etdi. Növbəti mərhələdə türkmənistanlı Zarip Cumayevlə döyüşdən 3:0 hesabı ilə qalibiyyət qazanaraq növbəti tura keçdi. 4/1 finalda Tailand boksçusu Çatçai Budtee ilə qarşılaşan Elvin Məmişzadə medalın bir addımlığında 3:0 hesabı ilə məğlub olub.

56 kiloqram çəki dərəcəsində Cavid Çələbiyev 32/1 final mərhələdə tacikistanlı Ofaz Afzolşoyevi 2:1 hesabı ilə məğlub etdi. 16/1 final mərhələdə monqol Tuqstsoqt Nyanbayarı 2:1 hesabı ilə məğlub edərək 8/1 final mərhələsinə adladı. 8/1 finalda keniyalı Benson Ciqarunu 2:1 hesabı ilə məğlub edən boksçumuz 4/1 finalda da hindistanlı Şiva Tapanı 3:0 hesabı ilə məğlub etdi. Yarım final görüşündə Qazaxıstan idmançısı Kayrat Yeraliyevidə 2:1 hesabı ilə məğlub edən boksçumuz Dünya Çempionatınının finalına vəsiqə qazandı. Final görüşü maraqlı anları ilə yadda qaldı. Gərgin mübarizə şəraitində keçən döyüşdə Cavid Çələbiyev və rusiyalı Vladimir Nikitin qarşılaşdı. Bu görüş Azərbaycan boksçusunun 3:0 hesablı qələbəsi ilə başa çatdı. Cavid Çələbiyev Boks üzrə XVII Dünya Çempionu adına layiq görüldü.

60 kiloqram çəki dərəcəsində vuruşan Elvin İsayev də 32/1 final mərhələdən yarışlara qoşuldu. İlk mərhələdə O, Banqladeş təmsilçisi Məhəmməd Əmin üzərində 3:0 hesablı inamlı qələbə qazandı. Növbəti mərhələdə Bolqarıstanı təmsil edən erməni əsilli Vazgen Safaryanı 3:0 hesabı ilə mübarizədən kənarlaşdırdı. 8/1 final mərhələdə irlandiyalı Sin Makkombu da 2:1 hesabı ilə məğlub edən İsayev 4/1 finala adladı. Burada o, italyan Domeniko Valentinoya 3:0 hesabı ilə uduzaraq medalsız qaldı.

64 kiloqram çəki dərəcəsində çıxış edən Heybətulla Hacıəliyev Filippin boksçusu Dennis Qalvanı hər 3 raundda məğlub edərək 16/1 final mərhələsinə yüksəldi. Bu mərhələdə o, özbək Sanjarbek Rahmonova 3:0 hesabı ilə məğlub olaraq Dünya Çempionatını tərk etdi.

69 kiloqram çəki dərəcəsində çıxış edən boksçumuz Pərviz Bağırov Tai-Peyli Vanq Yu-Jenlə qarşılaşmada təmiz qələbə ilə qalib gələrək növbəti mərhələyə vəsiqə qazandı. Burada o, Moldova boksçusu Vasili Belus üzərində 3:0 hesabı ilə

qalib gəldi. 8/1 finalda boksçumuzun rəqibi italyan Vinçenzo Manqiakapre Pərviz Bağırovdan üstün olub. Görüş 3:0 İtaliya boksçusunun xeyrinə başa çatıb.

75 kiloqram çəki dərəcəsində çıxış edən Soltan Migitinov Yamayka idmançısı Conatan Hansonla qarşılaşmadan təmiz qələbə ilə qalib ayrılaraq növbəti mərhələyə adladı. Burada o, Qazaxıstan boksçusu Janibek Alimxanlı ilə döyüşdə 3:0 məğlubiyyətlə rastlaşdı.

81 kiloqram çəki dərəcəsində yarışan idmançımız Rauf Rəhimov 32/1 final mərhələdə polyak Mateuz Triçə 2:1 hesabı ilə məğlub olaraq Çempionatı erkən tərk etdi.

91 kiloqram çəki dərəcəsində yarışan Teymur Məmmədov 16/1 final mərhələdə Nigeriya təmsilçisi Efetobor Apoçi ilə qarşılaşmada 3:0 hesabı ilə qalib gəldi. 8/1 final mərhələdə Hindistan idmançısı Manprit Sinx üzərində 3:0 hesablı tam qələbə qazanaraq 4/1 final mərhələsinə yüksəlib. Bu mərhələdə Teymur Məmmədov kubalı boksçu Erislandi Savonla çətin qarşılaşmadan 2:1 hesablı qələbə ilə ayrıla bilib. Yarım finalda isə daha bir italyan boksçu Teymur Məmmədovun finala gedən yolunu kəsib. Döyüş Klemente Russonun 3:0 hesablı qələbəsi ilə başa çatıb. Beləliklə 91 kiloqram çəki dərəcəsində yarışlara qatılan Teymur Məmmədov Azərbaycan yığma komandasının hesabına bürünc medal əldə edib.

91+ çəki dərəcəsində Məhəmmədrəsul Məcidov 8/1 final mərhələdən yarışlara qoşulub. İlk görüşdə amerikan Cam Eyvsonu 3:0 hesabı ilə məğlub etdi. 4/1 finala yüksələn boksçumuz rusiyalı Məhəmməd Ömərovu 3:0 hesabı ilə məğlub edərək özü üçün bürünc medalı təmin edib. Yarım final mərhələdə daha bir İtaliya-Azərbaycan dueli reallaşıb. Burada Məhəmmədrəsul Məcidovun rəqibi Roberto Kamarelli olub. Bu dəfə görüş Azərbaycan təmsilçisinin 3:0 hesablı inamlı qələbəsi ilə başa çatıb. Finalda Qazaxıstan boksçusu İvan Dıçko ilə görüş çox gərgin keçdi ilk 2 raundu geridə başa vuran Məhəmmədrəsul Məcidov döyüşün sonlarında nokautla döyüşü öz xeyrinə başa vurmağı bacardı. Bu Azərbaycan yığma komandasının Boks üzrə XVII Dünya Çempionatında qazandığı 2-ci qızıl medal idi. (11)

Azərbaycan yığma komandasının XVIII Dünya Çempionatında iştirakı. 2015-ci il Oktyabrın 6-15 tarixləri arasında Qətərin Doha şəhərində keçirilən yarış Rio-de-Janeyrodakı 2016 Yay Olimpiya Oyunlarına lisenziya turniri oldu. Əvvəlcə beş ölkə 2015-ci ildə Dünya Boks Çempionatına ev sahibliyi etmək hüququna iddia etdi: Rusiya, Qətər, Vanuatu, Tayland və Venesuela. Beynəlxalq Boks Federasiyasının 17 İyul 2013-cü il tarixli iclasında bu şərəf Qətərə verilib. Səsvermənin həlledici turunda Doha Taylandın paytaxtı Banqkoku qabaqlamışdı.

49 kiloqram çəki dərəcəsində çıxış edən Rüfət Hüseynov 16/1 final mərhələdə mərakeşli İmad Ahayun üzərində 3:0 hesablı qələbə qazandı. 8/1 final mərhələsinə yüksələn Rüfət Hüseynov özbək Həsənbəy Dusmatov üzərində də 2:1 hesablı qələbə qanaraq 4/1 final mərhələsinə adlayıb. Bu mərhələdə boksçumuz medalın bir addımlığında mübarizəni yekunlaşdırıb. Ukrayna boksçusu Dimitro Zamotayevə 2:1 hesabı ilə məğlub olan Rüfət Hüseynov yarışı medalsız tərk edib.

52 kiloqram çəki dərəcəsində yarışan Elvin Məmişzadənin çıxışı uğurlu olub, belə ki, o, əvvəlcə almaniyalı Həmzə Tubanı 3:0, 4/1 final mərhələdə ingiltərəli Məhəmməd Əlini təmiz qələbə ilə, yarım finalda isə Əlcəzair təmsilçisi Məhəmməd Flissi üzərində xüsusi gözəl zərbə ilə nokautla qələbə qazanaraq finala vəsiqə qazanıb. Final görüşü xüsusi gərginlik və gözəlliyi ilə seçilib. Kubalı Yosvani Veyta çətin keçən görüşdə həmyerlimizə 3:0 hesabı ilə məğlub olub. Beləliklə, 52 kiloqram çəki dərəcəsində yarışlara qatılan Elvin Məmişzadə Boks üzrə XVIII Dünya Çempionatının qalibi adına layiq görülüb.

56 kiloqram çəki dərəcəsində vuruşan I Avropa oyunları bürünc medalçısı gənc Tayfur Əliyev 8/1 final mərəhələsində Monqolustan təmsilçisi İderku Enxjarqal üzərində 3:0 hesablı qələbə qazanıb. 4/1 final mərhələdə isə irland boksçu Maykl Konlan Tayfur Əliyevin medala gedən yolunu bağlayıb. Görüş 3:0 İrlandiya idmançısının xeyrinə başa çatıb.

60 kiloqram çəki dərəcəsində çıxış edən boksçumuz Albert Səlimov ilk görüşündə İrlandiya təmsilçisi Sin Makkomb üzərində 2:1 hesablı qələbə qazanıb. 4/1 final mərhələsinə yüksələn Albert Səlimov Fransa boksçusu Sofian Oumiha üzərində 3:0 hesabı ilə qalib olub. Yarım finalda boksçumuzun rəqibi Braziliya

idmançısı Robson Conseicao olub. Albert Səlimov bu görüşdə hər 3 raundda qələbə qazanaraq finala adlayıb. Finalda daha bir Kuba-Azərbaycan qaşılaşmasında bu dəfə Kuba boksçusu Lazaro Alvarezin təmiz qələbə ilə qalibiyyəti ilə sonlanıb. Albert Səlimov yalnız finalda uduzaraq Dünya Çempionatını gümüş medalla başa vurub.

64 kiloqram çəki dərəcəsində yarışan boksçumuz Lorenzo Alfonso Sotomayor ilk turda Kanada təmsilçisi Artur Biarslanovla qarşılaşmadan 3:0 hesablı qalibiyyətlə ayrıldı. 8/1 final mərhələdə əlcəzairli Abdulkadir Çadini də 3:0 hesablı məğlubiyyətə uğradıb. 4/1 final mərhələyə yüksələn Sotomayor Rusiya boksçusu Vitalli Dunaytsevə 3:0 hesabı ilə məğlub olaraq Dünya Çempionatını medalsız başa vurub.

69 kiloqram çəki dərəcəsində yarışan idmançımız Pərviz Bağırov da turnirə uğurla başlayıb. 8/1 final mərhələdə meksikalı Marvin Kabreranı 3:0 hesabı ilə məğlub edərək 4/1 finala çıxıb. Burada Pərviz Bağırov Kuba boksçusu Rosniel İglesiasla gərgin görüşdən 2:1 hesablı qələbə ilə ayrıla bilib. Yarım finalda isə Qazaxıstan komandasının liderlərindən olan Daniyar Yeleusinova 3:0 hesablı məğlubiyyətlə üzləşən Pərviz Bağırov Dünya Çempionatının bürünc medalına yiyələnib.

81 kiloqram çəki dərəcəsində çıxış edən boksçumuz Teymur Məmmədov ilk görüşdəcə uğursuzluqla üzləşdi. Onun rəqibi Rusiya boksçusu Pavel Silyaqin oldu. Görüş sonuncunun 3:0 hesablı qələbəsi ilə başa çatdı.

91 kiloqram çəki dərəcəsində çıxış edən idmançımız Abdulkadir Abdullayev ilk görüşdə Əlcəzair təmsilçisi Çoib Buludinatı 3:0 hesabı ilə məğlub edib. 4/1 final mərhələdə Argentina idmançısı Yamil Peraltanı 3:0 hesabı ilə məğlub edərək yarımfinala vəsiqə qazanıb. Yarımfinalda boksçumuz kubalı Erislandi Savonla görüşdən 3:0 hesabı ilə məğlubiyyətə uğrayıb və Dünya Çempionatını bürünc medalla tərk edib. (12)

Azərbaycan yığma komandasının XIX Dünya Çempionatında iştirakı. 2017-ci il 25 Avqust-2 Sentyabr tarixində Almaniyanın Hamburq şəhərində Dünya Çempionatı keçirildi. Bu Almaniyanın keçirdiyi 3-cü Dünya Çempionatı idi. Əvvəllər, 1982-ci ildə Münhen və 1995-ci ildə Berlin Boks üzrə Dünya

Çempionatlarına ev sahibliyi edib. Çempionatda 85 ölkədən 279 boksçu, o cümlədən Rio-de-Janeyro 2016 Yay Olimpiya Oyunlarının 18 medalçısı iştirak etdi.

64 kiloqram çəki dərəcəsində yarışan idmançımız Lorenso Alfonso Sotomayor 8/1 final mərhələdə Misir boksçusu Eslam Aly ilə keçirdiyi görüşdə 3:2 hesabı ilə məğlub oldu.

69 kiloqram çəki dərəcəsində yarışlara qatılan Pərviz Bağırov monqol Tuvşinbat Byanba ilə görüşdən 1:4 hesablı məğlubiyyətlə ayrıldı.

75 kiloqram çəki dərəcəsində çıxış edən Kamran Şahsuvarlı 8/1 final mərhələdə holland Maks Vanderpas üzərində 3:2 hesablı qələbə qazanaraq 4/1 final mərhələsinə yüksəldi. Bu mərhələdə Jorge Luis Vivasla görüş keçirən Kamran Şahsuvarlı kolumbiyalı rəqibindən üstün oldu. Görüş həmyerlimizin 3:2 hesablı qələbəsi ilə başa çatdı. Lakin, yarımfinalda boksçumuz uğurla çıxış edə bilmədi. qazaxıstanlı Abilxan Amankul idmançımızı üstələyərək finala vəsiqə qazanıb. Görüş 5:0 hesabı ilə Abilxan Amankulun xeyrinə başa çatıb. Kamran Şahsuvarlı isə Dünya Çempionatında bürünc medalla kifayətlənib.

91+ kiloqram çəki dərəcəsində yarışan boksçumuz Məhəmmədrəsul Məcidov 16/1 final mərhələdən yarışlara qoşulub və ilk görüşdə hindistanlı Satış Kumarı hər 5 hakimin qərarı ilə məğlub edib. Növbəti mərhələdə iordaniyalı Hüseyn Eşaişlə qarşılaşmada da 5:0 hesablı qələbə qazanıb və 4/1 final mərhələsinə adladı. Bu mərhələdə təcrübəli boksçu fransız Cəmili Dine Abudu üzərində 3:2 hesabı ilə qalib gəldi. Növbəti mərhələdəki görüşdə avstraliyalı Cozef Qodalla görüş 4:1 hesabı ilə Məcidovun xeyrinə başa çatıb. Yarımfinalda da qalib gələn Məhəmmədrəsul Məcidov finaldakı görüşdə Qazaxıstan boksçusu Kamşibek Kunkabayevdən üstün olub. Döyüşün nəticəsinə görə 4:1 hesabı ilə qalib gələn Məhəmmədrəsul Məcidov növbəti dəfə Dünya Çempionu adına layiq görülüb. (13)

Azərbaycan yığma komandasının XX Dünya Çempionatında iştirakı. 2019-cu il sentyabrın 9-dan 21-dək Rusiyanın Yekaterinburq şəhərində keçirilib. Rusiya Çempionatın keçirilməsi hüququnu 24 İyul 2017-ci ildə Moskvada Beynəlxalq Boks Assosiasiyasının (AİBA) icra komitəsinin iclasında aldı Dünya Çempionatının

keçirilməsi üçün Ukrayna, Türkiyə, Hindistan və Tayland da iddia etdi. Postsovet Rusiyası heç vaxt kişilərin boks üzrə dünya Çempionatlarına ev sahibliyi etməmişdi. Sonuncu dəfə 1989-cu ildə SSRİ-də Dünya Çempionatı keçirildi və Moskva yarışa ev sahibliyi etdi. Soçi əvvəlcə çempionatın keçiriləcəyi məkan kimi planlaşdırılırdı, lakin 2019-cu ilin Yanvarında AİBA məkanı Yekaterinburqa köçürdü. çempionat Yekaterinburq-Expo arenasında keçirilib. 12 Avqust 2019-cu ildə Ukrayna Boks Federasiyasının mətbuat xidmətinin rəhbəri Aleksandr Podavalenko Ukraynanın 20-ci Boks Dünya Çempionatına rəsmi nümayəndə heyəti göndərməyəcəyini açıqladı: “Ukrayna Boks Federasiyası Dünya Çempionatına rəsmi nümayəndə heyəti göndərməyi planlaşdırmır. Son Avropa Oyunlarında, Xarkovdakı Avropa Çempionatında iştirak edən Ukrayna milli komandasının üzvləri, Ukrayna komandasının birinci və ikinci nömrələri olan uşaqlar, şübhəsiz ki, Rusiyada iştirak etməyəcəklər.”

52 kiloqram çəki dərəcəsində çıxış edən həmyerlimiz Məsud Yusifzadə 32/1 final mərhələdə mərakeşli Mortaji Səidi 5:0 hesabı ilə məğlub etsə də, növbəti mərhələdə erməni idmançı Artur Hovanisyan ilə görüş uğurlu alınmadı. Bərabər səviyyədə keçən görüşün sonunda hakimlərin hamısı qələbəni cüzi üstünlüklə erməni idmançıya verdi.

57 kiloqram çəki dərəcəsində yarışan həmyerlimiz Tayfur Əliyev ilk mərhələdə İsveç idmançısı Punqo Tiaqoya 5:0 hesabı ilə qalib gəldi. 32/1 final mərhələdə də də qələbə qazanan idmançımızın rəqibi Türkmənistan idmançısı Yazımurad Qurbanov oldu. Görüşün hesabı 5:0 həmyerlimizin xeyrinə başa çatıb. Növbəti mərhələdə İngiltərə boksçusu Piter Makqreyllə qarşılaşan Tayfur Əliyev yüksək səviyyəli döyüş aparmasına baxmayaraq hakimlər qələbəni az fərqlə İngiltərə təmsilçisinə verdilər və beləcə yığma komandamızın medal ümidlərindən biri olan Tayfur Əliyev də yarışı medalsız tərk etdi.

63 kiloqram çəki dərəcəsində yarışlara qatılan gənc boksçu Bəxtiyar Qazıbəyov ilk görüşündə Zakir Safiulinlə görüşdə 5:0 hesablı məğlubiyyətlə ayrıldı.

69 kiloqram çəki dərəcəsində yarışan Lorenso Sotomayor avstraliyalı Malliya Ceysonu 3:2 hesabı ilə məğlub edərək növbəti mərhələyə vəsiqə qazandı. Bu

mərhələdə əlcəzairli Şəmsəddin Kramo ilə qarşılaşan boksçu 3:2 hesabı ilə məğlub olaraq yarışla vidalaşdı.

75 kiloqram çəki dərəcəsində çıxış edə Amin Kuşkov ilk görüşdə Pazziyev Nursahat üzərində 4:1 hesablı qələbə qazandı. Növbəti mərhələdə Rusiya boksçusu Bakşi Hleblə döyüşən boksçumuz 4:1 hesablı məğlubiyyətlə üzləşib.

81 kiloqram çəki dərəcəsində çıxış edən Azərbaycan yığma komandasının üzvü Alfonso Dominqez Loren ilk görüşündə İspaniya təmsilçisi Gazimagomed Calidov üzərində 3:2 hesabı ilə qələbə qazanaraq növbəti mərhələyə vəsiqə qazandı. Bu turda Avstriya idmançısı Ömər Canbekovu da 4:1 hesabı ilə məğlub edən boksçumuz 4/1 finala vəsiqə qazandı. Bu turda Özbəkistan boksçusu Dilşodbek Ruzmetovla qarşılaşan Loren Alfonso 3:2 hesabı ilə məğlub olub və medal qazanmadan mübarizəni dayandırdı.

91 kiloqram çəki dərəcəsində yarışan həmyerlimiz İsmayıl Yaqubov Ukrayna təmsilçisi Marat Qriqoryan ilə qarşılaşmanı 4:1 hesablı məğlub bitirərək mübarizəni erkən mərhələdə dayandırıb.

91+ kiloqram çəki dərəcəsində iştirak edən boksçumuz Məhəmməd Abdullayev ilk görüşünü Çin idmançısı Bayikevuzi Danabikeyə qarşı keçirdi. Bu görüş Məhəmməd Abdullayevin 4:1 hesabı ilə qələbəsini rəsmiləşdirdi. Növbəti turda misirli Mustafa Yusri üzərində 3:2 hesablı qələbə qazanan idmançımız 4/1 finala yüksəldi. Medalın bir addımlığında avstraliyalı Castis Huniyə 5:0 hesabı ilə məğlub olan boksçumuz Dünya Çempionatını medalsız başa vurdu. (14)

1.2. Gənclərdən ibarət yığma komandanın Dünya Birinciliklərində iştirakı

Gənclərdən ibarət Azərbaycan yığma komandasının VII Dünya Birinciliyində iştirakı. 1991-ci ildə Müstəqil Respublika adını qazanan Azərbaycan Respublikasının boks üzrə gənclərdən ibarət yığma komandası ilk dəfə 1992-ci il 25 sentyabr 4 oktyabr tarixlərində Kanadanın Monreal şəhərində keçirilən Gənclərin Dünya Birinciliyinə qatıldı.

48 kiloqram çəki dərəcəsində çıxış edən Xanlar Mahmudov 8/1 final mərhələdə yarışlara qoşuldu və ilk döyüşdə amerikalı Peter Frissinaya 5:4 hesabı ilə məğlub olaraq mübarizəni dayandırdı.

51 kiloqram çəki dərəcəsində vuruşan Rövşən Hüseynov 16/1 final mərhələdə irlandiyalı Adrian Patterson üzərində 10:5 hesablı qələbə qazandı. 8/1 final mərhələdə Çin idmançısı Liu Faxianqla görüşdə qalib gəlsədə 4/1 final mərhələdə kubalı Loranzo Araqona 7:2 hesabı ilə məğlub olaraq medalın bir addımlığında mübarizədən kənarda qaldı.

71 kiloqram çəki dərəcəsində çıxış edən boksçumuz Etibar Abdullayev 8/1 final mərhələdə Bolqarıstan təmsilçisi Stoyan İvanova 15:13 hesabı ilə məğlub oldu.

91+ kiloqram çəki dərəcəsində yarışlara yarım final mərhələdən qoşulan Ədalət Məmmədov Rusiya boksçusu Mixail Porşnevə 24:7 hesabı ilə məğlub oldu və Gənclərin Dünya Birinciliyini bürünc medalla başa vurdu. (15)

Gənclərdən ibarət Azərbaycan yığma komandasının VIII Dünya Birinciliyində iştirakı. Gənclərdən ibarət yığma komanda müstəqil Azərbaycan bayrağı altında Türkiyənin İstanbul şəhərində 1994-cü ildə keçirilən Gənclərin Dünya Birinciliyinə qatıldı.

48 kiloqram çəki dərəcəsində iştirak edən Ramil Nəzərov Qırğızıstan boksçusu Nurlan Basurmankulovla görüşdə təmiz qələbə ilə qalib gəldi. 8/1 final mərhələdə Türkiyə boksçusu Məhərrəm Yenisolakla qarşılaşan idmançımız təmiz qələbə ilə qalib gələrək növbəti mərhələyə adladı. Medalın bir addımlığında Finlandiya boksçusu Coni Turmenlə qarşılaşmada 15:0 hesabı ilə məğlubiyyətə uğradı və Dünya Birinciliyini medalsız başa vurdu.

51 kiloqram çəki dərəcəsində yarışan Fuad Aslanov 16/1 final mərhələdə Gürcüstanı təmsil edən erməni əsilli Ararat Oqanesyan üzərində 8:6 hesablı qələbə qazanaraq növbəti mərhələyə vəsiqə qazandı. 8/1 final mərhələdə Norveç təmsilçisi üzərində qələbə qazanan Fuad Aslanov 4/1 final mərhələsinə yüksəldi. Bu mərhələdə Rumıniya boksçusu İon Makoveylə qarşılaşmada 20:15 hesabı ilə məğlub olaraq medalsız qaldı.

54 kiloqram çəki dərəcəsində çıxış edən Namiq Hüseynov 16/1 final mərhələdə Türkmənistan idmançısı Xemra Baqayevə 14:2 hesabı ilə məğlub oldu.

57 kiloqram çəki dərəcəsində yarışan həmyerlimiz Oqtay Quliyev çexiyalı rəqibi Yaroslav Koneçniyə 1:0 hesabı ilə məğlub olaraq Dünya Birinciliyi ilə erkən mərhələdə vidalaşdı.

60 kiloqram çəki dərəcəsində yarışan A.Tağıyev də ilk mərhələdə məğlub oldu. Almaniyalı Endi Şemanla görüş sonuncunun 6:2 hesablı qələbəsi ilə başa çatdı.

63,5 kiloqram çəki dərəcəsində yarışlara qatılan Kənan Qadiyev mərakeşli Hişam Nafil üzərində 12:6 hesabı ilə qələbə qazanaraq 8/1 final mərhələsinə vəsiqə qazandı. Bu mərhələdə Amerika idmançısı Corc Havli ilə qarşılaşmanı 7:6 hesabı ilə öz xeyrinə başa vuraraq 4/1 final mərhələsinə yüksəldi. Bu mərhələdə ukraynalı Roman Dzumanla qarşılaşmadan diskolifikasiya qərarı ilə məğlub oldu.

67 kiloqram çəki dərəcəsində yarışan Emin İsrafilbəyov 16/1 final mərhələdə Qırğızıstan boksçusu Anisar Sidiqaliyevə 9:2 hesabı ilə qalib gəldi. Lakin bu mərhələdə almaniyalı rəqibi Corc Rosomkieviçlə qarşılaşmanı 6:2 hesablı məğlubiyyətlə bitirdi.

75 kiloqramda yarışan idmançımız İlham Kərimov belarusiyalı Vitali Samusenko ilə döyüşdən diskolifikasiya qərarı ilə məğlub ayrıldı. (16)

Gənclərdən ibarət Azərbaycan yığma komandasının IX və X Dünya Çempionatlarında iştirakı. 1996-cı il noyabrın 4-10 arasında Kubanın Havana şəhərində Gənclərin IX Dünya Birinciliyinə və 1998-ci il noyabrın 6-16 tarixləri arasında Argentinanın Buenos-Ayres şəhərində keçirilən Gənclərin X Dünya Birinciliyinə Gənclərdən ibarət Azərbaycan yığma komandası qatılmadı.

Gənclərdən ibarət Azərbaycan yığma komandasının XI Dünya Birinciliyində iştirakı. 2000-ci il noyabrın 5-10 tarixləri arasında Macarıstanın Budapeşt şəhərində keçirilən Dünya Birinciliyinə 6 illik fasilədən sonra qatılan yığma komandamız kifayət qədər uğurla çıxış etdi.

51 kiloqram çəki dərəcəsində yarışan Şahlar Nağıyev Özbəkistan təmsilçisi Dilşod Durayev ilə 16/1 final mərhələdə 13:2 hesab ilə qalib gəldi. 8/1 final mərhələsinə vəsiqə qazanan idmançımız burada Amerika Birləşmiş Ştatlarını təmsil edən Raşim Ceferson ilə görüşdə diskolifikasiya qərarı ilə məğlub oldu.

54 kiloqram çəki dərəcəsində yarışlara 8/1 final mərhələdən qoşulan boksçumuz Emil Məhərrəmov xorvatiyalı Mario Kis ilə görüşdə təmiz qələbə ilə qalib gəlsədə 4/1 final mərhələdə Rusiya boksçusu Murat Kraçevə 16:8 hesabı ilə məğlub olaraq medalsız qaldı.

60 kiloqram çəki dərəcəsində çıxış edən boksçumuz Fərhad Acalov 16/1 final mərhələdən yarışlara qoşuldu. O, ilk olaraq Rumıniya boksçusu İonut Mehedintenlini 15:4 hesabı ilə məğlub etdi. 8/1 final mərhələdə Bolqarıstan boksçusu Kaloyan Kuçkovu 18:3 hesabı ilə məğlub edən Fərhad Acalov 4/1 final mərhələdə kubalı Uilman San Xuan Miranda üzərində 8:4 hesablı qələbə qazanaraq yarımfinala vəsiqə qazandı. Yarım finalda Rusiya Federasiyası idmançısı Həbib Allahverdiyevi 19:9 hesabı ilə məğlub edən Fərhad Acalov Dünya Birinciliyinin finalında döyüşmək hüququ qazandı. Final görüşündə də böyük çətinlik çəkmədən Slovakiya boksçusu Pavol Hlavacka üzərində 18:5 hesabı ilə qalib gələn boksçumuz Gənclərin XI Dünya Birinciliyinin qalibi adına layiq görüldü.

63,5 kiloqram çəki dərəcəsində çıxış edən həmyerlimiz Etibar Tağıyev 16/1 final mərhələdə digər Rumıniya boksçusu Flavius Bunea ilə görüşü 13:15 hesablı məğlubiyyətlə bitirdi.

71 kiloqram çəki dərəcəsində yarışan Ruslan Məhəmmədov da 16/1 final mərhələdən yarışlara qatıldı. O, ilk görüşdə Amerika Birləşmiş Ştatlarını təmsil edən Mark Anene ilə döyüşdə 10:4 hesabı ilə qalib gəldi. 8/1 final mərhələdə kanadalı Cin Paskalı 18:8 hesabı ilə məğlub edərək 4/1 final mərhələsinə yüksəldi. Qazaxıstan boksçusu Aleksandr Laverlə qaşılaşan boksçumuz görüşü 4:1 hesabı ilə qalib bitirdi və yarımfinala adladı. Yarım finalda almaniyalı boksçu Eduard Qutnex ilə görüşdə 23:6 hesabı ilə məğlub olan Ruslan Məhəmmədov Gənclərin XI Dünya Birinciliyində bürünc medal qazandı.

75 kiloqram çəki dərəcəsində çıxış edən həmyerlimiz Anar Mirzəyev 8/1 final mərhələdə Rusiya Federasiyası boksçusu Aleksandr Kuvatovla görüşdə məğlub oldu.

81 kiloqram çəki dərəcəsində iştirak edən Albek Dudayev ukraynalı Vitali Mixeyenko ilə görüşdə məğlub oldu. (17)

Gənclərdən ibarət Azərbaycan yığma komandasının XII Dünya Birinciliyində iştirakı. 2002-ci il Sentyabrın 15-22 tarixlərində Kubanın Santiaqo de Kuba şəhərində Gənclərin Dünya Birinciliyi keçirildi.

57 kiloqram çəki dərəcəsində yarışlara qatılan Seymur Qurbanov 16/1 final mərhələdə ingiltərəli Natan Bru ilə görüşdə 21:19 hesablı məğlubiyyətlə üzləşdi.

60 kiloqram çəki dərəcəsində çıxış edən boksçumuz Emil Məhərrəmov Rusiya təmsilçisi David Arustamyanla görüşdə 8:6 hesablı məğlubiyyətlə ayrıldı.

63,5 kiloqram çəki dərəcəsində yarışlara qatılan boksçumuz Aslan Bayramov rusiyalı Zaurbek Baysanqurova 26:7 hesabı ilə məğlub oldu.

67 kiloqram çəki dərəcəsində çıxış edən həmyerlimiz Elnur Qədirov Kanada boksçusu Filip Loqreko ilə görüşdə məğlub oldu. (18)

Gənclərdən ibarət Azərbaycan yığma komandasının XIII Dünya Birinciliyində iştirakı. 2004-cü il 12-18 iyun tarixləri arasında Cənubi Koreya Respublikasının Jeju şəhərində Gənclərin Dünya Birinciliyi baş tutdu.

54 kiloqram çəki dərəcəsində yarışlara 32/1 final mərhələdən qoşulan Elşən İsmayılov Ukrayna boksçusu Maksim Juravlovla görüşdə 27:16 hesabı ilə qalib gəldi. 16/1 final mərhələdə Özbəkistan idmançısı İqor Alborovla görüşdən təmiz qələbə ilə qalib gəldi. 8/1 final mərhələsinə yüksələn idmançımız bu mərhələdə Türkiyə boksçusu Sərdar Avcı ilə görüşdə təmiz qələbə ilə qalib gələrək 4/1 finala adladı. Bu mərhələdə Özbəkistan boksçusu Bahadur Məmmədcanovla görüşdə 35:23 hesabı ilə qalib bitirsə də yarım final görüşündə Meksika boksçusu Abner Mareslə görüşü 52:41 hesabı ilə məğlubiyyətlə bitirdi və Dünya Birinciliyinin bürünc medalını qazandı.

57 kiloqram çəki dərəcəsində çıxış edən Elvin Vəliyev 16/1 final mərhələdə Yeni Zelandiya boksçusu Skot Qardner üzərində 33:16 hesabı ilə qalib gəldi. 8/1 final mərhələdə Qırğızıstan boksçusu Əhməd Madamirova 28:9 hesabı ilə məğlub olan boksçumuz Dünya Birinciliyini medalsız tərk etdi.

60 kiloqram çəki dərəcəsində çıxış edən boksçumuz Koreya idmançısı Ji-Ho Kimlə görüşdə 18:12 hesabı ilə məğlub oldu.

64 kiloqram çəki dərəcəsində çıxış edən boksçumuz Tural Nağıyev ilk görüşdə belarus Sergey Rabçenko ilə görüşü 31:23 hesablı məğlubiyyətlə bitirdi.

69 kiloqram çəki dərəcəsində iştirak edən idmançımız 8/1 final mərhələdə rusiyalı David Arustamyanla görüşdə 31:29 hesabı ilə məğlub oldu.

75 kiloqram çəki dərəcəsində yarışlara qatılan Elnur Heydərov Tay Pey idmançısı Liu Yen Çenlə baş tutan görüşdə təmiz qələbə ilə qalib gəldi. Boksçumuz 8/1 final mərhələdə Qazaxıstan boksçusu Marat Qiyasovla görüşü də qalib bitirdi. Görüş həmyerlimizin 40:31 hesablı qələbəsi ilə bitdi. 4/1 final mərhələdə Macarıstan idmançısı Andras Naqi ilə görüşdə təmiz qələbə ilə qalib gəldi. Yarım finalda isə Rusiya boksçusu Dmitri Çadinovla qarşılaşan boksçumuz görüşü məğlub bitirərək Azərbaycan yığma komandası hesabına ikinci bürünc medalı qazandırdı.

81 kiloqram çəki dərəcəsində yarışlara qatılan Zaur Teymurov 8/1 final mərhələdən yarışlara qatıldı. İlk görüşdə Macarıstan boksçusu Mark Lakatosla görüşdə qalib gəldi. 4/1 final mərhələdə Amerika Birləşmiş Ştatlarını təmsil edən Rommel Rene ilə görüşdə qalib gələrək növbəti mərhələyə vəsiqə qazandı. Yarım finalda növbəti Rusiya-Azərbaycan duelinin qalibi yenə rəqib komandanın təmsilçisi oldu. Görüş Nikolay Pavlyukovun təmiz qələbəsi ilə qurtarıdı. Beləcə yığma komanda hesabına üçüncü bürünc medal yazılıb.

91 kiloqram çəki dərəcəsində çıxış edən Elçin Əlizadə yarışa Kanada boksçusu Sebastyan Lalumir ilə görüşdə 23:6 hesablı qələbə ilə başladı. 4/1 final mərhələsinə yüksələn idmançımız burada koreyalı Qyunq-Don Li ilə görüşdə qalib gəldi. Yarım final görüşündə Özbəkistan boksçusu Əzizcan Rahmonov ilə görüşdə təmiz qələbə ilə məğlub olan Elçin Əlizadə XIII Dünya Birinciliyində Azərbaycan yığma komandasının qazandığı bürünc medallarının sayını dördə çatdırıb. (19)

Gənclərdən ibarət Azərbaycan yığma komandasının XIV Dünya Birinciliyində iştirakı. 2006-cı il 8-18 Sentyabr tarixlərində Mərakeşin Aqadir şəhərində Gənclərin Dünya Birinciliyi keçirildi.

48 kiloqram çəki dərəcəsində yarışlara qatılan Elgün Əhmədov Rusiya boksçusu Mixail Aloyanla görüşdə məğlub oldu.

51 kiloqram çəki dərəcəsində Rəhim Nəcəfov Macarıstan boksçusu Kristyan Lakatos ilə görüşdə qalib gəldi. Növbəti mərhələdə Monqolustan təmsilçisi Enkjarqal İderkunu 23:4 hesabı ilə məğlub etdi. 4/1 final mərhələdə Rumıniya boksçusu Marius Niculesku ilə görüşdə təmiz qələbə ilə qalib gəldi. Yarım final görüşündə gələcəyin parlaq ulduzu Vasili Lomaçenko ilə qarşılaşmada təmiz qələbə ilə məğlub olan Rəhim Nəcəfov Dünya Birinciliyinin bürünc medalını qazana bildi.

54 kiloqram çəki dərəcəsində yarışan Samir Məmmədov ilk görüşündə Çin Xalq Respublikasının boksçusu Janq Jiveini 20:14 hesabı ilə məğlub edərək növbəti mərhələyə vəsiqə qazandı. Lakin bu mərhələdə Özbəkistan boksçusu Orzubek Şayimovla qarşılaşan boksçumuz uğur qazana bilmədi. Görüş Özbəkistan idmançısının 46:32 hesablı qələbəsi ilə başa çatdı.

57 kiloqram çəki dərəcəsində iştirak edən boksçumuz Namiq Hüseynov ilk görüşdə Əlcəzair təmsilçisi Həmzə Kramo ilə görüşü 29:32 hesabı ilə məğlub bitirdi.

60 kiloqram çəki dərəcəsində döyüşən Famil Süleymanov ilk turda Estoniya boksçusu Yuri Klotsenok üzərində 27:8 hesabı ilə qalib gəldi. Növbəti mərhələdə Tunis boksçusu Məhəmməd Əli Qeslati ilə döyüşünü 42:15 hesabı ilə qələbə ilə bitirərək 4/1 finala vəsiqə qazandı. Bu mərhələdə çinli Hu Riçabilic üzərində 29:25 hesabı ilə qələbə qazanan idmançımız yarımfinala adladı. Bu turda Famil Süleymanov Qazaxıstan boksçusu Əzəmət Smaqulovla görüşdə 27:10 hesabı ilə məğlub olsa da Dünya Birinciliyini bürünc medalla başa vurdu.

64 kiloqram çəki dərəcəsində vuruşan Namiq Cəbrayılov Monqolustan təmsilçisi Demberel Erdene ilə görüşdə təmiz qələbə ilə qalib gəldi. Növbəti mərhələdə latviyalı rəqibi Germans Qrekovs üzərində 39:21 hesabı ilə qalib gələn Namiq Cəbrayılov yarım final görüşündə mərakeşli İdris Mussaidə məğlub olaraq medalın bir addımlığında Çempionatı tərk etdi.

69 kiloqram çəki dərəcəsində çıxış edən həmyerlimiz Natiq Alışov ilk turda Koreya idmançısı Conq Ja Minlə görüşü 16:4 hesabı ilə qalib gəlsədə növbəti mərhələdə braziliyalı Yamaquçi Falkao ilə görüşü 39:19 hesablı məğlubiyyətlə bitirərək yarışı 8/1 final mərhələdən tərk etdi.

75 kiloqram çəki dərəcəsində döyüşən Rüstəm Safiyev Koreya boksçusu Ho Cin Ho ilə görüşdə 29:12 hesabı ilə məğlub olaraq Çempionatı tərk etdi.

81 kiloqram çəki dərəcəsində çıxış edən həmyerlimiz Teymur Əsgərov ilk mərhələdə Çexiya boksçusu Yan Slaçta ilə döyüşünü 18:3 hesabı ilə öz xeyrinə bitirə bildi, lakin medal qazanmağa gücü çatmadı. Belə ki, yarım final görüşündə italyan Gianluca Qalli ilə görüşdə 30:16 hesabı ilə məğlub oldu.

91+ kiloqram çəki dərəcəsində iştirak edən İlham Hətəmov ilk görüşdə İngiltərə boksçusu Tayson Furiyə 21:11 hesabı ilə məğlub oldu. (20)

Gənclərdən ibarət Azərbaycan yığma komandasının AİBA Gənclərin I Dünya Birinciliyində iştirakı. 2008-ci il 25 Oktyabr 1 Noyabr tarixlərində Meksikanın Quadalaxara şəhərində AİBA Gənclərin Dünya Birinciliyi keçirildi. Bu turnirdə Dünya Birinciliyinin adı dəyişdirilərək AİBA Gənclərin Dünya Birinciliyi adını aldı. Bu yarışda Azərbaycan yığma komandası iştirak etmədi.

Gənclərdən ibarət Azərbaycan yığma komandasının AİBA Gənclərin II Dünya Birinciliyində iştirakı. 2010-cu il 25 Aprel 3 May tarixlərində Azərbaycanın paytaxtı Bakı şəhərində AİBA Gənclərin II Dünya Birinciliyi keçirildi.

48 kiloqram çəki dərəcəsində çıxış edən Salman Əlizadə ilk görüşünü 8/1 final mərhələsi çərçivəsində keçirdi. Qvatemala boksçusu Mikol Tellonu 6:2 hesabı ilə məğlub edən boksçumuz 8/1 final mərhələsinə yüksəldi. Rumıniya boksçusu Stefan Kaslarov üzərində 15:0 hesablı inamlı qələbə qazanan boksçumuz növbəti mərhələdə belarus Vadim Kirilenkonu da 14:6 hesabı ilə məğlub etdi. Yarımfinal döyüşünə çıxan Salman Əlizadə bu turda da özbəkistanlı Zahidcan Kurboyevi 17:3 hesabı ilə məğlub etdi və Dünya Birinciliyinin finalına vəsiqə qazandı. Final görüşündə irlandiyalı Rayan Burnetlə döyüşən Salman Əlizadə 9:4 hesablı qələbə qazanaraq AİBA Gənclərin II Dünya Birinciliyinin qalibi adına layiq görüldü.

51 kiloqram çəki dərəcəsində yarışlara qatılan Şaban Şahpələngov 32/1 final mərhələdə braziliyalı Cuselinyo Pantoja üzərində 13:3 hesablı qələbə əldə etdi. Növbəti mərhələdə irland Kris Felan üzərində 15:6 hesabı ilə qələbə qazanaraq növbəti mərhələyə vəsiqə qazandı. Bu mərhələdə Çin idmançısı Jianq Jinyonqla görüşü də 6:2 hesabı ilə qalib gələn boksçumuz 4/1 final mərhələdə Hindistan

boksçusu Baskar Cerripotulanı da təmiz qələbə ilə məğlub etdi və Dünya Birinciliyinin finalına vəsiqə qazanan ikinci boksçumuz oldu. Azərbaycan yığma komandasının ikinci final görüşü də uğurlu alındı. Belə ki, Puerto Riko idmançısı Emanuel Rodriqezlə qarşılaşan Şaban Şahpələngov bu görüşü 14:6 hesabı ilə qalib bitirərək Azərbaycan yığma komandasının hesabına ikinci qızıl medalı qazandırdı.

54 kiloqram çəki dərəcəsində iştirak edən idmançımız Elnur Zeynalov yarışlara qoşulduğu 16/1 final mərhələdə Macarıstan boksçusu Robert Lakatosa 10:7 hesabı ilə məğlub olaraq yarışı erkən tərk etdi.

57 kiloqram çəki dərəcəsində döyüşən boksçumuz Elvin İsayev 32/1 final mərhələdə İsrail boksçusu Roy Xarmats üzərində 16:2 hesabı ilə qələbə qazandı. 16/1 final mərhələdə özbək Bobur Aytbayevə 5:4 hesabı ilə qalib gələn boksçumuz növbəti mərhələyə adladı. Bu turda Qazaxıstan boksçusu Darxan Zumsakbayevlə döyüş 13:5 hesablı qələbə ilə bitdi. 4/1 final mərhələdə Qırğızıstan boksçusu Nursultan Pazilovla görüş həmyerlimizin 22:11 hesablı qələbəsi ilə başa çatdı. Bürünc medalı özü üçün təmin etmiş boksçumuz finala vəsiqə qazana bilmədi. Yarım Finalda Kuba boksçusu Norlan Yera ilə görüşdən 14:3 hesabı ilə məğlub ayrılaraq Dünya Birinciliyinin bürünc medalı ilə kifayətləndi.

60 kiloqram çəki dərəcəsində çıxış edən həmyerlimiz Kamran Baxşəliyev Rumıniya boksçusu Amansio Paraşivlə görüşdən təmiz qələbə ilə qalib ayrıldı. 8/1 final mərhələdə türkiyəli Hüseyn Karslıoğlunu 5:0 hesabı ilə məğlub edən boksçumuz 4/1 final mərhələsinə yüksəlsə də bundan artığına gücü çatmadı. Bu mərhələdə Kamran Baxşəliyev Litva boksçusu Evaldas Petrauskasla görüşü 3:0 hesablı məğlubiyyəti ilə başa çatdı və beləcə medalın bir addımlığında mübarizəni dayandırdı.

64 kiloqram çəki dərəcəsində iştirak edən Tamerlan Abdullayev 32/1 final mərhələdə hindistanlı Harpal Sinxi 8:7 hesabı ilə məğlub etsədə növbəti mərhələdə Argentina idmançısı Fabian Maydana boksçumuzdan üstün oldu. Görüş argentinalının 7:4 hesablı qələbəsi ilə başa çatdı.

69 kiloqram çəki dərəcəsində yarışlara qatılan Emil Əhmədov da turnirə 32/1 final mərhələdən qoşuldu. O ilk görüşdə Nepal təmsilçisi Rohan Pradhanla görüşdə

təmiz qələbə ilə qalib gəldi. 16/1 final mərhələdə Türkiyə boksçusu Tolqa Doğanı 4:0 hesabı ilə məğlub edən Emil Əhmədov 8/1 final mərhələsinə yüksəldi. Bu mərhələdə Özbəkistan təmsilçisi Əhməd Məmmədcanova qarşı döyüşən həmyerlimiz 8:3 hesablı məğlubiyyətlə üzləşdi.

75 kiloqram çəki dərəcəsində yarışlara 16/1 final mərhələdən qoşulan Vətən Hüseynli ilk görüşdə Litva idmançısı Diventas Miçkevius üzərində 14:7 hesabı ilə qələbə qazandı. 8/1 final mərhələdə Hindistan boksçusu Navin Kumarla görüş Vətən Hüseynlinin 11:3 hesablı qələbəsi ilə başa çatdı. 4/1 final mərhələdə isə Macarıstan boksçusu Zoltan Harcsa ilə döyüşən Vətən Hüseynli 9:5 hesabı ilə məğlub olaraq Dünya Birinciliyini medalsız başa vurdu.

81 kiloqram çəki dərəcəsində çıxış edən boksçumuz Teymur Məmmədov Braziliya boksçusu Tiaqo Lima ilə ilk döyüşdə təmiz qələbə ilə qalib gəldi. 8/1 final mərhələdə Çin idmançısı Janq Aolinlə görüşdə də 9:2 hesabı ilə qalib gələn boksçumuz 4/1 final mərhələdə iştirak etmək hüququ qazandı. Bu turda Türkiyə idmançısı Burak Akşin ilə qarşılaşan boksçumuz 5:1 hesabı ilə məğlub olaraq mübarizəni dayandırdı.

91 kiloqram çəki dərəcəsində çıxış edən Hacıbaba Hacıbabayevin Ukrayna təmsilçisi Armen Simonyanla döyüşü 13:5 hesablı məğlubiyyəti ilə başa çatdı.

91+ kiloqram çəki dərəcəsində çıxış edən boksçumuz Fərqan Ömərov yarışa 8/1 final mərhələdən qoşuldu. İlk görüşdə Belarusiya boksçusu Vladislav Kuptsov ilə görüş uğurlu oldu. Görüşün nəticəsinə görə Fərqan Ömərov 3:2 hesabı ilə 4/1 final mərhələsinə keçdi. Lakin bu mərhələdə xorvatiyalı Filip Hrqoviçə 15:4 hesabı ilə məğlub olaraq Dünya Birinciliyi ilə vidalaşdı. (21

Gənclərdən ibarət Azərbaycan yığma komandasının AİBA Gənclərin III Dünya Birinciliyində iştirakı. 2012-ci il 29 Noyabr 7 Dekabr tarixləri arasında Ermənistanın İrəvan şəhərində AİBA Gənclərin III Dünya Birinciliyi keçirildi.

52 kiloqram çəki dərəcəsində iştirak edən Tural Əhmədov 32/1 final mərhələdə norveçli Hadi Srourla görüşü 21:12 hesabı ilə öz xeyrinə başa çatdırdı. 16/1 final mərhələdə mavritaniyalı Donovan Geri ilə döyüşdə 18:4 hesabı ilə qalib gələrək növbəti mərhələyə adladı. 8/1 final mərhələsinə yüksələn Tural Əhmədov

bu turda Hindistan boksçusu Diraj Kumarla görüşü 12:20 hesablı məğlubiyyətlə bitirərək mübarizədən kənarda qaldı.

56 kiloqram çəki dərəcəsində yarışan Nəsrəddin Məmmədov 32/1 final mərhələsi çərçivəsində keçirdiyi görüşdə erməni idmançı Taron Soqomonyana 18:12 hesabı ilə məğlub oldu.

64 kiloqram çəki dərəcəsində iştirak edən boksçumuz Pərviz Bağırov 16/1 final mərhələsi çərçivəsində keçirdiyi ilk görüşdə yapon Hikaru Okişimanı 15:9 hesabı ilə məğlub etdi. 8/1 final mərhələdə Almaniya idmançısı Marsel Orsinqer üzərində 20:3 hesablı inamlı qələbə qazanan idmançımız növbəti mərhələdə Litva idmançısı Eymantas Stanionislə görüşü də 13:7 hesabı ilə qalib bitirdi. Yarım Final görüşünə çıxan Pərviz Bağırov Qvatemala boksçusu Laster Martinezə 13:9 hesabı ilə məğlub olaraq Dünya Birinciliyinin bürünc medalını qazandı.

69 kiloqram çəki dərəcəsində çıxış edən həmyerlimiz Saqi Salehli ukraynalı idmançı Artyom Solovyova 21:11 hesabı ilə məğlub olaraq mübarizəni dayandırdı.

75 kiloqram çəki dərəcəsində çıxış edən həmyerlimiz Orxan Mayıllı 16/1 final mərhələdə avstraliyalı Luk Traverslə döyüşdə sonuncunun diskolifkasiyası qərarı ilə qalib gəldi. 8/1 final mərhələdə venesuelalı Nalek Korvajla döyüşü də 16:8 hesabı ilə qalib bitirən idmançımız 4/1 final mərhələsinə yüksəldi. Burada Qazaxıstan boksçusu Dövlət Bayqabatovla döyüşdə 8:6 hesabı ilə məğlub oldu və medalsız qaldı.

81 kiloqram çəki dərəcəsində yarışlara qatılan boksçumuz Rauf Rəhimov ilk döyüşdə gürcü Aleksandr Dokvadzeyə diskolifikasiya qərarı ilə məğlub oldu.

91 kiloqram çəki dərəcəsində Rahil Məmmədli ilk görüşdə Puerto Riko idmançısı Sahret Delqadonu 17:11 hesabı ilə məğlub edərək növbəti mərhələyə vəsiqə qazandı. 8/1 final mərhələdə Venesuela boksçusu Alfonso Florezi 13:6 hesabı ilə məğlub edərək 4/1 final mərhələsinə vəsiqə qazandı. Bu turda ingilis Danni Vilyamsla döyüşən boksçumuz məğlub oldu və Dünya Birinciliyini medalsız başa vurdu. (22)

Gənclərdən ibarət Azərbaycan yığma komandasının AİBA Gənclərin IV Dünya Birinciliyində iştirakı. 2014-cü il 14-24 Aprel tarixlərində Bolqarıstanın Sofiya şəhərində Gənclərin Dünya Birinciliyi keçirildi.

49 kiloqram çəki dərəcəsində çıxış edən Rüfət Hüseynov 16/1 final mərhələdə bolqar Orlin Yordanovla döyüşü 2:1 hesablı qələbə ilə tamamladı. 8/1 final mərhələdə rusiyalı Svyatoslav Varankin ilə görüşdə 2:1 hesabı ilə qələbə qazanan boksçumuz 4/1 final mərhələsinə yüksəlib. Burada Amerika Birləşmiş Ştatlarını təmsil edən Niko Hernandez üzərində 2:1 hesabı ilə qalib gəldi. Yarım Finalda boksçumuzun rəqibi Özbəkistan boksçusu Süleyman Latipov oldu. Görüş sonuncunun 3:0 hesablı qələbəsi ilə başa çatdı. Beləliklə, Rüfət Hüseynov AİBA Gənclərin IV Dünya Birinciliyinin bürünc medalını qazandı.

52 kiloqram çəki dərəcəsində çıxış edən Məsud Yusifzadə yarışa 32/1 final mərhələdə yapon Kantaro Juri ilə görüşdə 3:0 hesablı qələbə ilə başladı. Növbəti mərhələdə Kanada təmsilçisi Adrian Halfordla görüşdə 3:0 hesabı ilə qələbə qazanan idmançımız 8/1 final mərhələdə Özbəkistan boksçusu Abdulkay Sərəhmədov ilə döyüşdə də 3:0 hesablı qələbə qazanıb. 4/1 final mərhələsinə yüksələn idmançımız burada bolqarıstanlı Daniel Asenovu 3:0 hesabı ilə məğlub etdi. Yarım Finalda döyüşən növbəti idmançımız Məsud Yusifzadə İngiltərə boksçusu Məhəmməd Əliyə 3:0 hesabı ilə məğlub olaraq komandamızın hesabına ikinci bürünc medalı qazandırdı.

56 kiloqram çəki dərəcəsində çıxış edən boksçumuz Tayfur Əliyev 32/1 final mərhələdə digər Yaponiya təmsilçisi Araşi Morisakaya 3:0 hesabı ilə məğlub oldu.

60 kiloqram çəki dərəcəsində yarışlara qatılan Orxan Əliyev 32/1 final mərhələdə Serbiya boksçusu Florian Sabo ilə döyüşərək 2:1 hesabı ilə məğlub oldu.

64 kiloqram çəki dərəcəsində yarışlara qoşulan Cavid Quliyev 16/1 final mərhələdə Qazaxıstan boksçusu Ayan Kalibekovla görüşü 2:1 hesablı qələbə ilə tamamladı. Növbəti mərhələdə özbək Mahmud Qayipovla döyüşən boksçumuz 3:0 hesabı ilə qalib gələrək növbəti mərhələyə vəsiqə qazandı. Bu turda İtaliya boksçusu Vinçenzo Areçiyaya məğlub oldu.

69 kiloqram çəki dərəcəsində iştirak edən Raman Zakirov 32/1 final mərhələdə Macarıstan idmançısı Bernard Barsoni ilə döyüşdə 2:1 hesabı ilə məğlubiyyətə uğradı.

75 kiloqram çəki dərəcəsində yarışlara qatılan boksçumuz Şamil Əliyev 32/1 final mərhələdə Yaponiya komandasının digər üzvü ilə qarşılaşdı. Bu AİBA Gənclərin IV Dünya Birinciliyinin 32/1 final mərhələdə üçüncü Yaponiya-Azərbaycan dueli oldu. Bu görüş həmyerlimizin 3:0 hesablı qələbəsi ilə başa çatdı. Növbəti mərhələdə emənistanlı boksçu Gevorq Petrosyanla görüşən idmançımız 2:1 hesabı ilə qələbə qazandı. Növbəti mərhələdə Qazaxıstan boksçusu Bekjan Bakirovla döyüşdə 2:1 hesabl ilə məğlub oldu və yarışdan kənarda qaldı.

81 kiloqram çəki dərəcəsində döyüşən İbrahim Quliyev ilk görüşdə Litva boksçusu Darius Asmontas ilə döyüşdü və 3:0 hesabı ilə qalib gəldi. 8/1 final mərhələdə Qazaxıstan idmançısı Vadim Kazakov ilə döyüşdə məğlub olaraq mübarizəni dayandırdı.

91 kiloqram çəki dərəcəsində yarışan Şükran Mehdiyev Norveç boksçusu Conas Sonstebi ilə döyüşü 2:1 hesablı qələbəsi ilə yekunlaşdı. 8/1 final mərhələdə Türkiyə idmançısı Məhəmməd Aydın ilə döyüşən həmyerlimiz 3:0 hesablı qələbəyə sevindi. Lakin medalın bir addımlığında xorvat boksçu Toni Flipi ilə qarşılaşmanı 1:2 hesablı məğlubiyyətlə bitirdi.

91+ kiloqram çəki dərəcəsində çıxış edən Məhəmmədəli Tairov da Litva boksçusu Deyvidas Sernas üzərində 16/1 final mərhələdə 3:0 hesablı qələbə qazandı. 8/1 final mərhələsinə yüksələn idmançımız bu mərhələdə Türkiyə boksçusu Eren Uzunu 3:0 hesabı ilə məğlub etdi. 4/1 final mərhələdə Rusiya təmsilçisi Marat Kərimxanova 3:0 hesabı ilə məğlub olaraq Dünya Birinciliyini medalsız başa vurdu. (23)

Gənclərdən ibarət Azərbaycan yığma komandasının AİBA Gənclərin V Dünya Birinciliyində iştirakı. 2016-cı il 17-27 Noyabr tarixlərində Rusiya Federasiyası Sankt-Peterburq şəhərində AİBA Gənclərin Dünya Birinciliyi keçirildi.

52 kiloqram çəki dərəcəsində çıxış edən Ruslan Rüstəmov 32/1 final mərhələdə rumıniyalı Sebastian Arbuz ilə döyüşdə 3:2 hesabı ilə məğlub oldu.

56 kiloqram çəki dərəcəsində çıxış edən Ramazan Abdullayev 32/1 final mərhələdə İspaniya boksçusu Yordan Kamaçonu 3:2 hesabı ilə məğlub etdi. 16/1 final mərhələdə Puerto Riko boksçusu Xavier Qomez üzərində 3/2 hesablı qələbə qazandı. Növbəti mərhələdə Avstraliya idmançısı Sem Qudman ilə döyüşən həmyerlimiz 0:5 hesabı ilə məğlub olaraq mübarizəni dayandırdı.

60 kiloqram çəki dərəcəsində çıxış edən Sərxan Əliyev 16/1 final mərhələdən yarışlara qoşuldu. İlk görüşdə Venesuela boksçusu Andru Solarte üzərində 3:2 hesabı ilə qələbə qazandı. 8/1 final mərhələsinə yüksələn idmançımız burada irland Peddi Donovan üzərində 3:2 hesabı ilə qalib gəldi. 4/1 final mərhələsinə yüksələn idmançımız burada Ukrayna təmsilçisi Zarovor Petrosyana 3:2 hesabı ilə məğlub olaraq Dünya Birinciliyini medalsız başa çatdırdı.

64 kiloqram çəki dərəcəsində yarışlara qatılan Bəxtiyar Qazıbəyov Özbəkistan təmsilçisi Bəhruz Rahmonovla döyüşü 0:5 hesablı məğlubiyyətlə bitirdi.

69 kiloqram çəki dərəcəsində çıxış edən Pərviz Quliyev digər Puerto Riko idmançısı Prayan Polasonu 3:2 hesabı ilə məğlub etdi. 8/1 final mərhələsinə adlayan həmyerlimiz burada Ukrayna təmsilçisi Pavlo Qula ilə döyüşü 2:3 hesabı ilə məğlub bitirib.

75 kiloqram çəki dərəcəsində Rasim Çobanlı Özbəkistan təmsilçisi Şokrux Rüstəmova 0:5 hesabı ilə məğlub oldu.

81 kiloqram çəki dərəcəsində yarışan Elxan Əliyev də 16/1 final mərhələdə hindistanlı boksçu Reyal Puri ilə görüşdə 0:5 hesabı ilə məğlub olaraq Dünya Birinciliyini tərk etdi.

91 kiloqram çəki dərəcəsində çıxış edən boksçumuz Elbrus Əkbərov yarışlara 8/1 final mərhələdən qoşuldu. İlk döyüşdə Kuba boksçusu Daynier Pero ilə qarşılaşan təmsilçimiz 0:5 hesabı ilə məğlub oldu.

91+ kiloqram çəki dərəcəsində iştirak edən boksçumuz Məhəmməd Abdullayev Litva boksçusu Marek Korolkov üzərindı 5:0 hesabı ilə qələbə qazandı. 8/1 final mərhələdə irlandiyalı Keyvin Şihi ilə döyüşən həmyerlimiz 5:0 hesabı ilə

qalib gəldi. Medalın bir addımlığında avstraliyalı Castis Huniyə 0:5 hesabı ilə məğlub olan boksçumuz Dünya Birinciliyində medalsız qaldı. (24)

Gənclərdən ibarət Azərbaycan yığma komandasının AİBA Gənclərin VI Dünya Birinciliyində iştirakı. 2018-ci il 21-31 Avqust tarixlərində Macarıstanın Budapeşt şəhərində Gənclərin Dünya Birinciliyi keçirildi.

49 kiloqram çəki dərəcəsində çıxış edən həmyerlimiz Maksud Xasmetov 16/1 final mərhələdə Con Fişer Merçanla görüşdə 5:0 hesabı ilə qalib gəldi. Lakin növbəti mərhələdə Braziliya idmançısı Rafael Benderlə qarşılaşan təmsilçimiz 4:1 hesabı ilə məğlub olaraq mübarizəni dayandırdı.

64 kiloqram çəki dərəcəsində yarışlara qatılan boksçumuz Səbuhi Abışov ilk mərhələdə Tay-Pey idmançısı Hunq Yu-Şenq üzərində təmiz qələbə ilə qalib gəldi. 8/1 final mərhələdə iştirak etmək hüququ qazanan idmançımız bu mərhələdə iordaniyalı Bader Osman Məcid Samrinlə görüşdə 0:5 hesabı ilə məğlub oldu.

69 kiloqram çəki dərəcəsində yarışlara qatılan Nicat Həsənov Rumıniya boksçusu Tayson Lyubert ilə görüşünü 5:0 hesabı ilə öz xeyrinə başa çatdırdı. 4/1 final mərhələdə Tayland təmsilçisi Firafat Yasunqnoenlə görüşdə 4:1 hesabı ilə məğlub olaraq medalın bir addımlığında Çempionatı tərk etdi.

81 kiloqram çəki dərəcəsində iştirak edən Zaur Musayev Kuba boksçusu Kristyan Pinder ilə görüşdə 0:5 hesabı ilə məğlub oldu.

91 kiloqram çəki dərəcəsində döyüşən İsmayıl Yaqubov 8/1 final mərhələdə Avstriya boksçusu Əhməd Haqaq üzərində 5:0 hesabı ilə qələbə qazanaraq növbəti mərhələyə vəsiqə qazandı. Lakin növbəti mərhələdə rusiyalı idmançı İqor Fyodorovla döyüşən boksçumuz təmiz qələbə ilə məğlub oldu. (25)

### 1.3. Yeniyetmələrdən ibarət yığma komandanın Dünya Birinciliklərində iştirakı

Yeniyetmələrdən ibarət Azərbaycan yığma komandasının I Dünya Birinciliyində iştirakı. 2001-ci il Oktyabrın 11-21 tarixləri arasında Yeniyetmələrin Dünya Birinciliyi keçirildi. Yarışa ev sahibliyi etmək hüququ Azərbaycana verildi.

Paytaxtımız Bakı şəhərində keçirilən yarışda Azərbaycan yığma komandası uğurla çıxış etdi.

45 kiloqram çəki dərəcəsində çıxış edən boksçumuz Elşad İsmayılov 8\1 final mərhələdə Qazaxıstan boksçusu Sidikov Asxat üzərində təmiz qələbə ilə, 4\1 final mərhələdə Monqol Turqat ilə görüşdən təmiz qələbə ilə qalib ayrılsa da, yarım finalda Türkiyə təmsilçisi Güvən Aydəmirə 14:17 hesabı ilə məğlub oldu və bürünc medala yiyələndi.

48 kiloqram çəki dərəcəsində çıxış edən idmançımız Quliyev Elşad 8\1 final mərhələdə İndoneziya boksçusu David Yordanı 2:1 hesabı ilə, 4\1 final mərhələdə Qırğızıstan boksçusu Muxtar Əzimovu 20:10 hesabı ilə məğlub etdi. Yarım finalda Rusiya təmsilçisi Nikolay Brizqalovla qarşılaşan idmançımız 27:16 hesabı ilə məğlub olaraq komanda hesabına daha bir bürünc medal qazandırdı.

51 kiloqram çəki dərəcəsində yarışlara 4\1 final mərələsindən qoşulan N.Məmmədov ilk görüşdə indoneziyalı Moniaqa Arinaldonu təmiz qələbə ilə məğlub etsə də yarımfinalda özbəkistanlı Bahadurcan Soltanovla görüşdə 22:13 hesabı ilə məğlub oldu və yığma komanda hesabına üçüncü bürünc medalı yazdırdı.

54 kiloqram çəki dərəcəsində iştirak edən idmançımız Seymur Qurbanov ilk mərhələdə qazaxıstanlı Nurlan Talasbayevi təmiz qələbə ilə məğlub etdi. 4\1 final mərhələdə Özbəkistan boksçusu Elşad Rəsulovla görüşdə 10:11 hesablı məğlubiyyətlə üzləşərək yığma komanda tərkibində medalsız qalan iki idmançıdan biri oldu.

57 kiloqram çəki dərəcəsində yarışan Aslan Bayramov 8\1 final mərhələsi çərçivəsində hindistanlı Cey Sinx üzərində təmiz qələbə ilə, 4\1 final mərhələdə belarus Yevgeni Kosmatov üzərində 20:10 hesabı ilə, yarımfinalda özbəkistanlı Saatov İlhom üzərində təmiz qələbə ilə, finalda isə türkiyəli Sedat Taşçı üzərində 23:14 hesabı ilə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxdı.

60 kiloqram çəki dərəcəsində döyüşən Emil Məhərrəmov yarışlara 4\1 final mərhələdən qatıldı. İlk görüşdə qazaxıstanlı Marat Andamasovu təmiz qələbə ilə, yarım finalda ukraynalı Morlen Şefikovu 21:12 hesabı ilə, finalda isə Rusiya boksçusu Osman Ataşevi təmiz qələbə ilə məğlub edərək Yeniyetmələrin I Dünya

Birinciliyində Azərbaycan yığma komandasının hesabına ikinci qızıl medalı yazdırdı.

63,5 kiloqram çəki dərəcəsində yarışlara qoşulan Tural Nağıyev 4\1 final mərhələdə ukraynalı Sergey Derevyançenkonu 16:11 hesabı ilə, yarım finalda hindistanlı Sinx Asit Palı təmiz qələbə ilə məğlub etsə də finalda uğursuzluqla qarşılaşdı. Finalda kubalı Qinones Herve ilə döyüşən boksçumuz 12:18 hesablı məğlubiyyətlə üzləşdi və gümüş medalla kifayətlənməli oldu.

67 kiloqram çəki dərəcəsində yarışlara 4\1 final mərhələdən qoşulan Elçin Əlizadə Qazaxıstan boksçusu Talqat Baytoyevi, yarımfinal görüşündə gürcüstanlı Tornike İvenaşvilini təmiz qələbə ilə məğlub edərək finala vəsiqə qazandı. Finalda ukraynalı İsmayıl Silak ilə görüşdə məğlub olaraq yığma komandaya ikinci gümüş medalı qazandırdı.

71 kiloqram çəki dərəcəsində çıxış edən Qədirov Elnur 4\1 finalda Türkiyə boksçusu Turqay Təbəri üzərində 12:4 hesabı ilə, yarımfinalda Qazaxıstan boksçusu Yevqeni Eqemberdiyevi 22:15 hesabı ilə məğlub etdi. Final görüşündə Rusiya boksçusu Denis Boytsovla vuruşan həmyerlimiz 22:24 hesabı ilə məğlub olaraq Dünya Birinciliyini gümüş medalla başa vurdu.

75 kiloqram çəki dərəcəsində vuruşan həmyerlimiz Zaur Teymurov ardıcıl olaraq macarıstanlı Zcalek Frenc üzərində 21:9 hesabı ilə, yarımfinalda Tacikistan təmsilçisi Akmol Haitovu 20:13 hesabı ilə məğlub etdi. Finalda Kuba boksçusu Akosta Duatre ilə görüşdə 10:12 hesablı məğlubiyyətlə üzləşən boksçumuz yarışı gümüş medalla bitirdi.

81 kiloqram çəki dərəcəsində yarışan boksçumuz Fərhad Əsədullayev 4\1 final mərhələdə rusiyalı David Arşba ilə döyüşdə məğlub olaraq yarışı medalsız başa vurdu.

81+ kiloqram çəki dərəcəsində Rüfət Xairbekov 4\1 final mərhələdə Qazaxıstan boksçusu Arman Cumagəldiyevə təmiz qələbə ilə qalib gəldi. yarımfinalda kubalı Hernandez Suarezə 14:20 hesabı ilə məğlub olaraq yarışı bürünc medalla başa vurdu. (26) (27)

Yeniyetmələrdən ibarət Azərbaycan yığma komandasının II Dünya Birinciliyində iştirakı. 2002-ci il 3-13 May tarixləri arasında Macarıstanın Keçkemet şəhərində Yeniyetmələrin II Dünya Birinciliyi keçirildi. Bu yarış barədə məlumatlar az olduğundan, bizə məlum olan aşağıdakılardır.

75 kiloqram çəki dərəcəsində çıxış edən boksçumuz Elnur Qədirovun finalda Macarıstan təmsilçisi Andras Naqi üzərində qələbəsi ilə Dünya Birincisi oldu. 71 kiloqram çəki dərəcəsində çıxış edən Elçin Əlizadə və 81 kiloqram çəki dərəcəsində çıxış edən Zaur Teymurov bürünc medal qazandılar. (28)

Yeniyetmələrdən ibarət Azərbaycan yığma komandasının III Dünya Birinciliyində iştirakı. 2003-cü il 20-29 iyun tarixlərində Rumıniyanın Buxarest şəhərində Yeniyetmələrin Dünya Birinciliyi keçirildi.

46 kiloqram çəki dərəcəsində çıxış edən boksçumuz Samir Məmmədov 16/1 final mərhələdə Serbiya və Çernoqoriyadan olan Branidlav Yoviçiçlə görüşü təmiz qələbə ilə qalib gəldi. Növbəti mərhələdə Moldova boksçusu İqor Polikarpovu 16:4 hesabı ilə məğlub edən boksçumuz 4/1 final mərhələdə erməni idmançı Hovannes Danielyanı təmiz qələbə ilə, Rumıniya boksçusu Robert Bobarunu 22:12 hesabı ilə, finalda isə Tunis boksçusu Həmzə Bin Munaoer üzərində 24:18 hesabı ilə qalib gələrək Dünya Birinciliyinin qalibi adını qazandı.

48 kiloqram çəki dərəcəsində çıxış edən həmyerlimiz Tural Məmmədov 16/1 final mərhələdə Rumıniya boksçusu Kosmin Parvu üzərində 19:8 hesabı ilə qələbə qazandı. 8/1 final mərhələsinə yüksələn idmançımız burada Gürcüstan boksçusu Georgi Kilanavanı 21:9 hesabı ilə məğlub etdi. 4/1 final mərhələsinə yüksələn idmançımız burada Qırğızıstan təmsilçisi Tilek Saparbek ilə görüşdə 27:17 hesablı qələbə qazandı. Yarım final görüşündə də Özbək Orzubek Şayimovu təmiz qələbə ilə məğlub edən boksçumuz final döyüşündə ukraynalı Pavlo Davidova 19:13 hesabı ilə məğlub olaraq Dünya Birinciliyində gümüş medal qazanıb.

50 kiloqram çəki dərəcəsində yarışlara qatılan Rəhim Nəcəfov 8/1 final mərhələdə Türkiyə idmançısı Çetin Özdəmirlə görüşdə məğlub oldu.

54 kiloqram çəki dərəcəsində iştirak edən Elşən İsmayılov ilk görüşdə Serbiya və Çernoqoriya təmsilçisi Stefan Pavloviç ilə görüşü təmiz qələbə ilə, 8/1

final mərhələdə Macarıstan idmançısı Miklos Varqanı 20:5 hesabı ilə, 4/1 final mərhələdə Tunis boksçusu Şili Alanı 28:18 hesabı ilə qalib gəldi. Yarım finalda Dominikan boksçusu Arqeniz Mendezə 16:15 hesabı ilə məğlub olan boksçumuz yarışı bürünc medalla tərk etdi.

57 kiloqram çəki dərəcəsində çıxış edən idmançımız Namiq Cəbrayılov 16/1 final mərhələdə İsrail boksçusu Amer Aqbarianı 15:11 hesabı ilə məğlub etdi. Növbəti mərhələdə Kuba boksçusu Eddi Florezlə qarşılaşan boksçumuz 18:8 hesabı ilə məğlub oldu.

63 kiloqram çəki dərəcəsində iştirak edən Elçin Qasımov 8/1 final mərhələdə Gürcüstan boksçusu Koba Karkaşadzeyə 15:8 hesabı ilə məğlub oldu.

66 kiloqram çəki dərəcəsində çıxış edən həmyerlimiz Elşən Nadirov 8/1 final mərhələdən yarışlara qoşuldu və ilk görüşdə Ermənistan boksçusu Edmond Xarutunyan üzərində 26:16 hesabı ilə qələbə qazandı. 4/1 final mərhələdə iştirak etmək hüququ qazanan idmançımız burada Türkiyə idmançısı Ahmet Dəmirçi ilə görüşdə 27:22 hesabı ilə qalib gələrək yarımfinala vəsiqə qazandı. Bu mərhələdə Qazaxıstan boksçusu Eldar Abdurraqimova 22:12 hesabı ilə məğlub olan boksçumuz komanda hesabına daha bir bürünc medalı qazandırdı.

75 kiloqram çəki dərəcəsində yarışlara qatılan Cəbi Sailov 8/1 final mərhələdə Misir boksçusu Mahmud Əli Əl-Qatvari üzərində 20:8 hesabı ilə qələbə qazandı. 4/1 final mərhələdə rusiyalı idmançı Dmitri Çudinovla döyüşən Cəbi Sailov təmiz qələbə ilə məğlub olaraq Dünya Birinciliyini medalsız başa vurdu.

80 kiloqram çəki dərəcəsində çıxış edən boksçumuz Elçin Əlizadə 8/1 final mərhələdə Moldova idmançısı Viktor Sirtmaci ilə görüşdə təmiz qələbə ilə, 4/1 final mərhələdə Estoniya boksçusu Tanel Kolqa ilə görüşdə təmiz qələbə ilə qalib gəldi. Yarımfinalda boksçumuzun rəqibi Qazaxıstan boksçusu Muxtar Ruzdubayev oldu. Görüş sonuncunun 18:12 hesablı qələbəsi ilə başa çatdı. Elçin Əlizadə komandamız üçün növbəti bürünc medalı qazandı. (29)

Yeniyetmələrdən ibarət Azərbaycan yığma komandasının IV Dünya Birinciliyində iştirakı. 2005-ci il 10-18 Oktyabr tarixlərində İngiltərənin Liverpul şəhərində Yeniyetmələrin Dünya Birinciliyi keçirildi.

48 kiloqram çəki dərəcəsində yarışlara qatılan idmançımız ilk görüşdə belarusiyalı Aleksey Qaletiçi 25:16 hesabı ilə məğlub etsə də növbəti mərhələdə Özbəkistan boksçusu Kəmoliddin Əhmədova məğlub oldu.

50 kiloqram çəki dərəcəsində yarışlara qatılan boksçumuz Anar Sadıqlı İngiltərə boksçusu Maykl Maqirə 32:12 hesabı ilə məğlub oldu.

52 kiloqram çəki dərəcəsində iştirak edən təmsilçimiz Elnur Əliyev Hindistan bokçsusu Dineş Kumarı 29:22 hesabı ilə məğlub etdi. 4/1 final mərhələdə Türkiyə təmsilçisi Vəfa Karadənizi 31:19 hesabı ilə məğlub edən boksçumuz yarımfinalda kubalı Yasniel Toledo ilə döyüşdə məğlub olaraq bürünc medala yiyələndi.

54 kiloqram çəki dərəcəsində vuruşan İsmət Eynullayev ilk turda Qazaxıstan boksçusu Adlet Yeqizekovu 26:11 hesabı ilə məğlub etdi. 4/1 final mərhələsinə yüksələn idmançımız burada Ukrayna boksçusu Taras Holovaşçenko üzərində 26:18 hesabı ilə qələbə qazandı. Yarımfinal mərhələdə Rusiya boksçusu Vladimir Sarunyan ilə döyüşən boksçumuz məğlub oldu və Dünya Birinciliyinin bürünc medalına yiyələndi.

60 kiloqram çəki dərəcəsində çıxış edən boksçumuz Famil Süleymanov ilk görüşdə irlandiyalı Con Kenan üzərində 12:8 hesabı ilə qələbə qazandı. 4/1 final mərhələdə Kuba boksçusu Serxio Moraleslə qarşılaşan təmsilçimiz 28:14 hesabı ilə qalib gəldi. Yarım final görüşündə Qazaxıstan boksçusu Nurlan Narbayevə 23:27 hesabı ilə məğlub olan boksçumuz Dünya Birinciliyini bürünc medalla tərk etdi.

63 kiloqram çəki dərəcəsində Kamal Hüseynov Qazaxıstan idmançısı S.Yemek ilə döyüşdə 21:30 hesabı ilə məğlub oldu.

66 kiloqram çəki dərəcəsində Hacıağa Salahov Serbiya və Çernoqoriya təmsilçisi İqor Pejçiçlə görüşdə təmiz qələbə ilə, 8/1 final mərhələdə İrlandiya təmsilçisi Maykl Kollinsi 24:20 hesabı ilə, 4/1 final mərhələdə Estoniya boksçusu İqor Qulpanı 23:22 hesabı ilə məğlub etdi. Yarım final mərhələdə digər Kuba təmsilçisi Xulio Sezar İqlesiasla döyüşən həmyerlimiz məğlub olaraq Dünya Birinciliyində bürünc medal qazanan idmançılar sırasına qoşuldu.

75 kiloqram çəki dərəcəsində çıxış edən Hafiz İsgəndərov Rusiya boksçusu Albert Soblirova 21:17 hesabı ilə məğlub oldu.

80 kiloqram çəki dərəcəsində iştirak edən idmançımız Rüstəm Səlimov İngiltərə təmsilçisi Obed Mkvakonqo ilə döyüşdən 18:14 hesablı məğlubiyyətlə ayrıldı.

86 kiloqram çəki dərəcəsində çıxış edən Asim İsgəndərov türkmənistanlı S. Beşerov ilə döyüşdə qalib gəldi. Yarım final mərhələdə Qazaxıstan boksçusu N.Massenov ilə görüşdə 29:22 hesabı ilə qələbə qazandı. Yalnız finalda Amerika Birləşmiş Ştatlarını təmsil edən İsah Tomasla görüşdə 16:4 hesabı ilə məğlub olan Asim İsgəndərov Dünya Birinciliyinin gümüş medalını qazandı. (30)

Yeniyetmələrdən ibarət Azərbaycan yığma komandasının V Dünya Birinciliyində iştirakı. 2006-cı il 3-13 Avqust tarixində Türkiyənin İstanbul şəhərində Yeniyetmələrin Dünya Birinciliyi keçirildi.

46 kiloqram çəki dərəcəsində yarışlara qatılan Bəxtiyar Nadirov ilk görüşdə Hindistan boksçusu Prem Pakaş Purini 14:12 hesabı ilə məğlub etdi. 4/1 final mərhələdə Qazaxıstan boksçusu Daniyar Yeleusinovla görüşdə məğlub oldu.

50 kiloqram çəki dərəcəsində vuruşan İlkin Ağayev Rusiya boksçusu Osman Əliyev üzərində 25:18 hesablı qələbə qazandı. 4/1 final mərhələsinə yüksələn idmançımız burada koreyalı Kim Dok Yonqu 20:9 hesabı ilə məğlub etdi. Yarım final mərhələdə türkiyəli Baris Tastanı 23:18 hesabı ilə məğlub edən İlkin Ağayev yalnız finalda Hindistan boksçusu Sunil Kumarla görüşdə məğlub olaraq Dünya Birinciliyinin gümüş medalına yiyələndi.

52 kiloqram çəki dərəcəsində çıxış edən Vüsal Tağıyev Hindistan boksçusu Sinx Roşana 21:19 hesabı ilə məğlub oldu.

54 kiloqram çəki dərəcəsində çıxış edən boksçumuz Vüsal Əliyev Çin Xalq Respublikasının boksçusu Honq Tin Pan ilə görüşdə təmiz qələbə ilə qalib gələn boksçumuz 4/1 final mərhələdə kubalı Yasniel Toledoya 28:13 hesabı ilə məğlub olaraq medalın bir addımlığında mübarizəni dayandırdı.

57 kiloqram çəki dərəcəsində yarışan Vüsal Rzayev ingiltərəli Daniel Filipsə 29:14 hesabı ilə məğlub oldu.

60 kiloqram çəki dərəcəsində döyüşən Ağakərim Abdullayev Qazaxıstan boksçusu Nurdalet Şarmanova 23:11 hesabı ilə məğlub oldu.

63 kiloqram çəki dərəcəsində iştirak edən idmançımız Vüqar Kərimov ilk görüşdə Amerika Birləşmiş Ştatlarını təmsil edən Cerardo İbarra ilə döyüşdə 19:18 hesablı məğlubiyyətlə üzləşdi.

66 kiloqram çəki dərəcəsində çıxış edən boksçumuz Hacı Salahov Qazaxıstan təmsilçisi Xussan Baymatovu 19:18 hesabı ilə məğlub etdi. Növbəti mərhələdə Rusiya boksçusu Dmitri Smirnova 14:18 hesabı ilə məğlub oldu.

70 kiloqram çəki dərəcəsində yarışlara qatılan həmyerlimiz Rəşad Müslümov Macarıstan idmançısı Tamas Qondi ilə görüşdə təmiz qələbə ilə qalib gəldi. Yarım final mərhələdə Rusiya təmsilçisi Calambek Baysanqurova 23:12 hesabı ilə məğlub oldu və Dünya Birinciliyinin bürünc medalını qazandı.

75 kiloqram çəki dərəcəsində iştirak edən idmançımız Hafiz İsgəndərov ukraynalı Ehver Tuktarovu 18:14 hesabı ilə məğlub etdi. 4/1 final mərhələsinə adlayan həmyerlimiz burada Amerika Birləşmiş Ştatları boksçusu Dominik Veyd üzərində 22:9 hesablı qələbə qazandı. Yarım final görüşündə Qazaxıstan idmançısı Yerlan Seyidaliyevə 24:21 hesabı ilə məğlub olaraq turniri bürünc medalla başa vurdu.

80 kiloqram çəki dərəcəsində çıxış edən boksçumuz Malik Məmmədzadə Ukrayna boksçusu Dmitro Cadeviçə 4:9 hesabı ilə məğlub oldu.

86 kiloqram çəki dərəcəsində yarışlara qatılan boksçumuz Elçin Vəliyev Rusiya boksçusu Vitali Kudukovla görüşdən məğlub ayrıldı. (31)

Yeniyetmələrdən ibarət Azərbaycan yığma komandasının VI Dünya Birinciliyində iştirakı. 2007-ci il 31 Avqust 9 Sentyabr tarixlərində Azərbaycanın Bakı şəhərində Yeniyetmələrin Dünya Birinciliyi keçirildi.

46 kiloqram çəki dərəcəsində çıxış edən boksçumuz Elvin İsayev 8/1 final mərhələdə Ukrayna boksçusu Mikola Butsenko ilə görüşdə təmiz qələbə ilə qalib gələrək növbəti mərhələyə vəsiqə qazandı. 4/1 final mərhələdə Türkiyə boksçusu Səlcuk Əkər ilə döyüşdə 21:9 hesabı ilə qalib gələn boksçumuz yarımfinalda ingiltərəli Martin Vardı 18:5 hesabı ilə məğlub etdi. Finalda Hindistan boksçusu Umeş Yadav ilə döyüşən Elvin İsayev təmiz qələbə ilə qalib gələrək Dünya Birinciliyinin qalibi adına layiq görüldü.

48 kiloqram çəki dərəcəsində çıxış edən boksçumuz Elvin Məmişzadə 16/1 final mərhələdə Misir boksçusu Muhammed Hassanı 22:7 hesabı ilə məğlub etdi. Növbəti mərhələdə Gürcüstan təmsilçisi Qela Abaşidzeni məğlub edən boksçumuz 4/1 finalda Hindistan boksçusu Vikas Yadava 12:18 hesabı ilə məğlub olaraq medalın bir addımlığında mübarizəni dayandırdı.

50 kiloqram çəki dərəcəsində yarışlara qatılan Bəxtiyar Nadirov 16/1 final mərhələdə irland Tayron Makqullok üzərində 19:6 hesabı ilə qələbə qazandı. növbəti mərhələdə Özbəkistan boksçusu Bunyodbek Maşrapovu 26:15 hesabı ilə məğlub etdi. Növbəti mərhələdə Rumıniya boksçusu Katalin Corc ilə görüşdə 8:17 hesabı ilə məğlub olaraq mübarizəni dayandırdı.

52 kiloqram çəki dərəcəsində döyüşən İlkin Ağayev Gürcüstan boksçusu Levan Kobulaşvili ilə döyüşdə təmiz qələbə ilə qalib gəldi. 4/1 final mərhələdə özbək Kobiljon Bobojanovj 26:10 hesabı ilə məğlub etdi. Yarımfinal mərhələdə Koreya idmançısı Donq Hyon Sunq ilə döyüşən həmyerlimiz 16:11 hesabı ilə məğlub etdi. Final görüşündə Kuba idmançısı Lazaro Alvarezə təmiz qələbə ilə qalib gələrək Dünya Birinciliyində yığma komanda hesabına ikinci qızıl medalı qazandırdı.

54 kiloqram çəki dərəcəsində yarışlara qatılan Elvin Əliyev 16/1 final mərhələdə Rumıniya boksçusu Marin Draqosla görüşdə təmiz qələbə ilə qalib gəldi. Növbəti mərhələdə Qırğızıstan boksçusu Sabircan Uludastan ilə qarşılaşan təmsilçimiz təmiz qələbə ilə qalib gəldi. 4/1 final mərhələdə belarus Elmar Muxayevi təmiz qələbə ilə məğlub edən boksçumuz yarımfinalda Qazaxıstan boksçusu Daniyar Yeleusinovu da 16:9 hesabı ilə məğlub etdi. Yalnız finalda Amerika Birləşmiş Ştatları boksçusu Franki Qomezə 19:35 hesabı ilə məğlub olaraq gümüş medal qazandı.

57 kiloqram çəki dərəcəsində yarışlara qatılan Heybətulla Hacıəliyev israilli Ron Makovoz ilə döyüşdə nokaut ilə qalib gəldi. Növbəti turda Ukrayna boksçusu Aleksandr Kunetslə görüşdə təmiz qələbə ilə məğlub edən Heybətulla Hacıəliyev yarımfinalda Rumıniya boksçusu Daniel Baduleskunu 18:11 hesabı ilə məğlub etdi.

Final görüşündə özbək Uktamjon Rahmonova məğlub olan Heybətulla Hacıəliyev gümüş medal qazandı.

60 kiloqram çəki dərəcəsində iştirak edən İsmət Eynullayev ilk görüşdə koreyalı İm Sol ilə görüşdə 25:7 hesabı ilə qalib gəldi. 4/1 final mərhələdə avstraliyalı Rohan Murdok üzərində 23:10 hesabı ilə qalib gələn boksçumuz yarımfinalda Qazaxıstan boksçusu Jandos Mikanova 5:24 hesabı ilə məğlub olaraq bürünc medalla kifayətləndi.

63 kiloqram çəki dərəcəsində yarışlara qatılan boksçumuz Anar Cəfərov Qazaxıstan boksçusu Sergey Skakun ilə döyüşdə 22:5 hesablı qələbə qazandı. 4/1 final mərhələdə irland Ceyson Qiqley ilə görüşdə qalib gəlsə də yarımfinalda rusiyalı Dmitri Kulajenkoya 11:13 hesabı ilə məğlub olaraq komanda hesabına növbəti bürünc medalı əlavə etdi.

66 kiloqram çəki dərəcəsində çıxış edən Murad Ağamalıyev Rusiya təmsilçisi Vladimir Şışkinlə görüşdə 16:14 hesablı qələbə qazandı. Növbəti mərhələdə belarus İlya Platonenkanı 16:4 hesabı ilə məğlub edən boksçumuz 4/1 final mərhələdə özbək Avazbek Akramova 8:16 hesabı ilə məğlub oldu.

70 kiloqram çəki dərəcəsində iştirak edən həmyerlimiz Fərid Möhsümov Koreya idmançısı Cunq Canq Qyu üzərində 17:8 hesabı ilə qələbə qazansa da 4/1 final mərhələdə gürcü Roman Tavadzeyə 9:12 hesabı ilə məğlub oldu.

75 kiloqram çəki dərəcəsində yarışlara qatılan Rəşad Müslümov Amerika Birləşmiş Ştatları boksçusu Kavika Adivlə görüşdə 13:20 hesablı məğlubiyyətlə üzləşdi.

80 kiloqram çəki dərəcəsində çıxış edən Malik Məmmədzadə isveç Pejman Şefkani ilə görüşdə nokaut ilə məğlub etsə də, 4/1 final mərhələdə Serbiya boksçusu Zoran Yasareviç ilə görüşdə məğlub olaraq Dünya Birinciliyini medalsız tərk etdi.

86 kiloqram çəki dərəcəsində yarışlara qatılan həmyerlimiz Rəşad Abdullayev Polşa boksçusu Marsin Sivini 28:8 hesabı ilə məğlub etsə də yarımfinalda Puerto Riko idmançısı Keit Tapiaya 9:30 hesabı ilə məğlub olaraq Dünya Birinciliyinin bürünc medalını qazandı. (32)

Yeniyetmələrdən ibarət Azərbaycan yığma komandasının VII Dünya Birinciliyində iştirakı. 2009-cu il 23-30 May tarixləri arasında Ermənistanın paytaxtı İrəvanda Yeniyetmələrin Dünya Birinciliyi keçirildi. Adı dəyişdirələrək AİBA Yeniyetmələrin Dünya Birinciliyi adlandırılan bu yarışda Azərbaycan boksçuları iştirak etmədilər. (33)

Yeniyetmələrdən ibarət Azərbaycan yığma komandasının VIII AİBA Yeniyetmələrin Dünya Birinciliyində iştirakı. 2011-ci il 23-30 İyun tarixlərində Qazaxıstanın Astana şəhərində AİBA Yeniyetmələrin Dünya Birinciliyi keçirildi.

46 kiloqram çəki dərəcəsində çıxış edən boksçumuz Elnur Şəfizadə 16/1 final mərhələdə Bolqarıstan boksçusu Asif İslam üzərində 18:9 hesabı ilə qalib gəldi. 8/1 final mərhələdə Türkmənistan idmançısı Şatlıkmurad Muradovla döyüşən həmyerlimiz 19:12 hesabı ilə qələbə qazandı.4/1 final mərhələdə İraq Saham Əl Əzirəjə 9:13 hesabı ilə məğlub olaraq medalın bir addımlığında birinciliyi tərk etdi.

48 kiloqram çəki dərəcəsində iştirak edən idmançımız Məsud Yusifzadə Ermənistan boksçusu Erik Petrosyana 17:12 hesabı ilə məğlub oldu.

50 kiloqram çəki dərəcəsində çıxış edən Malik Muradov 16/1 final mərhələdə Stefan Sekuliç üzərində təmiz qələbə ilə qalib gəldi. 8/1 final mərhələsinə yüksələn idmançımız burada İraq təmsilçisi Camal Qasım üzərində 24:10 hesablı qələbə qazandı. 4/1 final mərhələdə hindistanlı Navin Kumarla görüşdə 18:9 hesabı ilə məğlubiyyətə uğrayan boksçumuz medalsız qaldı.

52 kiloqram çəki dərəcəsində çıxış edən həmyerlimiz Nəsrəddin Məmmədov Ukrayna boksçusu Stanislav Qatsko üzərində 17:7 hesabı ilə qələbə qazandı. 4/1 final mərhələsinə yüksələn idmançımız burada Filippin boksçusu Emir Marsialla görüşdə 9:14 hesabı ilə məğlub oldu.

54 kiloqram çəki dərəcəsində yarışlara qatılan Peyman Yusifli Koreya idmançısı Hyun Suk Lim üzərində 6:5 hesabı ilə qələbə qazansa da 8/1 final mərhələdə Qazaxıstan boksçusu Berjan Kibitkaliyevə 13:9 hesabı ilə məğlub oldu.

57 kiloqram çəki dərəcəsində çıxış edən İman Əhmədli 8/1 final mərhələsindn yarışlara qoşuldu və ilk görüşdə koreyalı İn Pyo Honqla görüşdə 8:13 hesablı məğlubiyyətlə üzləşdi.

60 kiloqram çəki dərəcəsində döyüşən Nurlan Nağıyev avstraliyalı Luk Pilanirosla döyüşdə 10:10 hesablı bərabərlik qazansada hakimlər qələbəni həmyerlimizə verdi. Növbəti mərhələdə Şotlandiya boksçusu Freyzer Qorn ilə döyüşdə 7:14 hesabı ilə məğlub oldu.

63 kiloqram çəki dərəcəsində çıxış edən həmyerlimiz Fuad Mustafayev Ukrayna boksçusu Oleksandr Pidmurnyaka 4:13 hesabı ilə məğlub oldu.

70 kiloqram çəki dərəcəsində yarışlara qatılan boksçumuz Orxan Mayıllı 8/1 final mərhələdə Belarus Hleb Sinkeçviç üzərində 13:8 hesabı ilə, 4/1 final mərhələdə Türkiyə boksçusu Ceyhan Barışı 11:4 hesabı ilə, yarımfinalda italyan Salvatore Kavallaronu 7:7 hesabı ilə qalib gəldi. Finalda Rusiya boksçusu Lendruj Akopyana 6:5 hesabı ilə məğlub olaraq gümüş medal qazandı.

75 kiloqram çəki dərəcəsində çıxış edən həmyerlimiz Nəbi Bağırov İsveç boksçusu Loran Batti üzərində 8:6 hesabı ilə qələbə qazandı. Lakin 4/1 final mərhələsinə yüksələn idmançımız burada Ukrayna təmsilçisi Vladislav Mixaylova 12:8 hesabı ilə məğlub oldu.

80 kiloqram çəki dərəcəsində döyüşən Rahil Məmmədli ilk görüşdə Rusiya boksçusu Ruslan Yurçenkoya 16:15 hesabı ilə məğlub oldu.

80+ kiloqram çəki dərəcəsində Məhəmmədəli Tairov avstraliyalı Rayn Fouldsla görüşdə 14:6 hesablı qələbə qazandı. 4/1 final mərhələsinə vəsiqə qazanan idmançımız burada Ermənistan boksçusu Seryoja Akobyana 8:10 hesabı ilə məğlub olaraq medalsız qaldı.(34)

Yeniyetmələrdən ibarət Azərbaycan yığma komandasının IX AİBA Yeniyetmələrin Dünya Birinciliyində iştirakı. 2013-cü il 8-15 Sentyabr tarixlərində Ukraynanın Kiyev şəhərində AİBA Yeniyetmələrin Dünya Birinciliyi keçirildi.

46 kiloqram çəki dərəcəsində çıxış edən Rüfət Hüseynov 16/1 final mərhələdə Vanuatu təmsilçisi Masinq Varavara üzərində 3:0 hesabı ilə qələbə qazandı. 8/1 final mərhələdə Ukrayna təmsilçisi Danyel Lapinə 0:3 hesabı ilə məğlub oldu.

48 kiloqram çəki dərəcəsində çıxış edən həmyerlimiz Elcan Qafarlı Filippin boksçusu Hipolito Banal üzərində 3:0 hesablı qələbə qazandı. 8/1 final mərhələsinə yüksələn idmançımız burada avstraliyalı Ceyms Bizlini nokaut ilə qalib gəlsə də 4/1

final mərhələdə Puerto Riko idmançısı Conatan Lopezə 1:2 hesabı ilə məğlub olaraq medalsız qaldı.

50 kiloqram çəki dərəcəsində yarışlara qatılan Ümid Rüstəmov ilk turda Hindistan boksçusu Varinder Sinx üzərində 3:0 hesabı ilə qələbə qazandı. 8/1 final mərhələdə Macarıstan idmançısı David Kovacs üzərində 2:1 hesabı ilə qalib gələn boksçumuz 4/1 final mərhələdə kubalı Maykel Frankoya 3:0 hesabı ilə məğlub oldu və Dünya Birinciliyini medalsız başa vurdu.

52 kiloqram çəki dərəcəsində döyüşən Qüdrət Quliyev 16/1 final mərhələdə Puerto Riko idmançısı Edvin Valentini 2:1 hesabı ilə məğlub etdi. Növbəti mərhələdə Rumıniya boksçusu Marian Ruta ilə döyüşən həmyerlimiz 3:0 hesabı ilə qalib gəldi. 4/1 final mərhələsinə yüksələn idmançımız burada Tay-Pey idmançısı Jan Cun Hsien ilə döyüşdə 0:3 hesabı ilə məğlub olaraq medalsız qalan növbəti həmyerlimiz oldu.

54 kiloqram çəki dərəcəsində yarışlara qatılan Elməddin İsmayılov 16/1 final mərhələdə Amerika Birləşmiş Ştatları təmsilçisi Deyvin Heney ilə görüşdə 2:1 hesabı ilə məğlub oldu.

57 kiloqram çəki dərəcəsində çıxış edən boksçumuz Pərviz Quliyev Özbək Boburmirzo Tolibova 2:1 hesabı ilə məğlub oldu.

60 kiloqram çəki dərəcəsində yarışlara qatılan boksçumuz Şamil İbrahimzadə ilk görüşdə Danimarka boksçusu Obayda İraqu ilə görüşdə 3:0 hesablı qələbə qazandı. 8/1 final mərhələsinə yüksələn idmançımız burada Moldova boksçusu Vladislav Tuqiyə 2:1 hesabı ilə məğlub oldu.

63 kiloqram çəki dərəcəsində çıxış edən həmyerlimiz İsmayıl Hüseynov 16/1 final mərhələdə Gürcüstan boksçusu Taraş Kandelakini 3:0 hesabı ilə məğlub etdi. Növbəti mərhələdə belarus Mixail Basyakovla qarşılaşan boksçumuz 3:0 hesablı qələbə qazandı. 4/1 final mərhələdə Finlandiya boksçusu Muhammed Abdilrasun ilə döyüşərək 2:1 hesabı ilə qələbə qazandı. Yarım final döyüşündə Koreya idmançısı Janq Byonq Hi üzərində 3:0 hesabı ilə qalib gələn İsmayıl Hüseynov finalda Rusiya boksçusu İlya Kulikova 0:3 hesabı ilə məğlub oldu və gümüş medala yiyələndi.

66 kiloqram çəki dərəcəsində yarışlara qatılan Rövşən Musayev ilk görüşdə Yeni Zelandiya boksçusu Rayan Skayf üzərində 3:0 hesablı qələbə qazandı. 8/1 final mərhələdə irland Lyuis Krokeri 3:0 hesabı ilə, 4/1 final mərhələdə isə avstraliyalı Mark Qlevi 3:0 hesabı ilə məğlub etdi. Yarımfinal döyüşündə Tacikistan bokçusu Şabbos Neymotulloyevi 3:0 hesabı ilə məğlub edən həmyerlimiz Finalda Qazaxıstan boksçusu Raxat Marzikpayevə 0:3 hesabı ilə məğlub oldu və gümüş medalla kifayətləndi.

70 kiloqram çəki dərəcəsində çıxış edən boksçumuz Hüseyn Tarverdili Ermənistan təmsilçisi Vardan Kosyanı 3:0 hesabı ilə məğlub etdi. 8/1 final mərhələdə Bosniya və Herseqovina idmançısı Sandro Poletan üzərində 3:0 hesabı ilə qələbə qazanan idmançımız 4/1 final mərhələdə Slovakiya boksçusu Andrej Riqonu 3:0 hesabı ilə məğlub etdi. Yarım final görüşündə Ukrayna təmsilçisi Ramil Haciyevə 2:1 hesabı ilə məğlub olan Hüseyn Tarverdili Dünya Birinciliyinin bürünc medalını qazandı.

75 kiloqram çəki dərəcəsində çıxış edən boksçumuz Elvin Məhərrəmov 16/1 final mərhələdə gürcü Rati Tlaşadzeyə 3:0 hesabı ilə məğlub oldu.

80 kiloqram çəki dərəcəsində yarışlara qatılan boksçumuz Şükran Mehdiyev türkiyəli Muhammed Aydına 3:0 hesabı ilə qalib gəldi. Növbəti mərhələdə Litva boksçusu Arnoldas Taraskeviçus 3:0 hesabı ilə qələbə qazandı. 4/1 final mərhələdə Amerika Birləşmiş Ştatları təmsilçisi Suray Mahmutoviç üzərində 2:1 hesabı ilə qalib gələn boksçumuz yarımfinalda Ukrayna boksçusu Robert Maytonla görüşdə 0:3 hesabı ilə məğlub olaraq Dünya Birinciliyinin bürünc medalına yiyələndi. (35) (36)

Yeniyetmələrdən ibarət Azərbaycan yığma komandasının X AİBA Yeniyetmələrin Dünya Birinciliyində iştirakı. 2015-ci il 4-12 Sentyabr tarixlərində Rusiyanın Sankt-peterburq şəhərində AİBA Yeniyetmələrin Dünya Birinciliyi keçirildi.

46 kiloqram çəki dərəcəsində yarışlara qatılan Kənan Əliyev 8/1 final mərhələdən yarışlara qoşuldu və ilk görüşdə Qazaxıstan boksçusu Aybek Dosanova 0:3 hesabı ilə məğlub oldu.

48 kiloqram çəki dərəcəsində çıxış edən boksçumuz Cavid Hüseynov 16/1 final mərhələdə Finlandiya boksçusu Masi Yurvanen üzərində 3:0 hesablı qələbə qazanaraq növbəti mərhələyə vəsiqə qazandı. 8/1 final mərhələdə rusiyalı İlya Popova 0:3 hesabı ilə məğlub oldu.

50 kiloqram çəki dərəcəsində çıxış edən həmyerlimiz Seyidrza Sadıxov 16/1 final mərhələdə Kuba boksçusu Elislandi Alvarezə 3:0 hesabı ilə məğlub olaraq mübarizəni dayandırdı.

52 kiloqram çəki dərəcəsində çıxış edən həmyerlimiz Hüseyn Sadıxov ilk görüşdə İsrail boksçusu David Xarmatsa 0:3 hesabı ilə məğlub oldu.

54 kiloqram çəki dərəcəsində yarışlara qatılan Orxan Həsənov ilk görüşdə Latviya boksçusu Serqeys Hocusins üzərində 3:9 hesablı qələbə qazandı. 8/1 final mərhələdə Danimarka boksçusu Mehdi Callav ilə görüşdə 2:1 hesabı ilə qələbə qazanan idmançımız 4/1 final mərhələdə Almaniya idmançısı Nik Bieri 2:1 hesabı ilə məğlub etdi. Yarımfinal mərhələdə Amerika Birləşmiş Ştatları təmsilçisi Mark Kastroya məğlub olaraq Dünya Birinciliyini bürünc medalla başa vurdu.

57 kiloqram çəki dərəcəsində döyüşən Elton Məmmədov 16/1 final mərhələdə Türkiyə boksçusu Necat Əkinçiyə 0:3 hesabı ilə məğlub oldu.

60 kiloqram çəki dərəcəsində çıxış edən həmyerlimiz Bəxtiyar Qazıbəyov ilk turda ukraynalı Zaxar Stefanovu 3:0 hesabı ilə məğlub etdi. 8/1 final mərhələdə Macarıstan idmançısı Mate Lakatosa 3:0 hesabı ilə qalib gələn boksçumuz 4/1 final mərhələdə kubalı Edel Akostaya 1:2 hesabı ilə məğlub olaraq medalsız qaldı.

63 kiloqram çəki dərəcəsində iştirak edən idmançımız Sayad Lalayev 16/1 final mərhələdə Danimarka boksçusu Oliver Menq üzərində 3:0 hesablı qələbə qazandı. Növbəti mərhələdə İsrail boksçusu Muhammed Abu Riaş üzərində 3:0 hesabı ilə qalib gələn boksçumuz 4/1 final mərhələdə Qazaxıstan boksçusu Alboy Jamirbaya 0:3 hesabı ilə məğlub olaraq Dünya Birinciliyini medalsız başa vurdu.

66 kiloqram çəki dərəcəsində çıxış edən boksçumuz Rəcəb Niftəliyev litvalı Tutvidas Cepkauskasa 0:3 hesabı ilə məğlub oldu.

70 kiloqram çəki dərəcəsində çıxış edən həmyerlimiz Şaiq Məlikov 16/1 final mərhələdə Rusiya təmsilçisi Artyom Oqanesyana 0:3 hesabı ilə məğlub oldu.

75 kiloqram çəki dərəcəsində döyüşən Elbrus Əkbərov Hindistan boksçusu Sandip Qanqasa 1:2 hesabı ilə məğlub oldu.

80+ kiloqram çəki dərəcəsində çıxış edən həmyerlimiz Məhəmməd Abdullayev 16/1 final mərhələdə tacikistanlı Əhməd Borezlə görüşdə nokaut ilə qalib gəldi. Növbəti mərhələdə Rumıniya boksçusu İonut Bohoticini 3:0 hesabı ilə məğlub edən boksçumuz 4/1 final mərhələdə Amerika Birləşmiş Ştatları boksçusu Riçard Torrezi 3:0 hesabı ilə məğlub etdi. Yarımfinal mərhələdə Rusiya boksçusu Dmitri Fominkini 2:1 hesabı ilə, finalda isə Almaniya idmançısı Daniel Malsamı 3:0 hesabı ilə məğlub edərək Dünya Birinciliyinin qalibi adına layiq görüldü. (37)

1.4. Qadınlardan ibarət yığma komandanın Dünya Çempionatlarında iştirakı

2001-ci il 24 Noyabr 2 Dekabr tarixlərində Qadınlar arasında I Dünya Çempionatı, 2002-ci il 21-27 Oktyabr tarixlərində Türkiyənin Antalya şəhərində Qadınlar arasında II Dünya Çempionatı, 2005-ci il 26 Sentyabr 2 Oktyabr tarixlərində Qadınlar arasında III Dünya Çempionatı, 2006-cı il 18-24 Noyabr tarixlərində Hindistanın Yeni Dehli şəhərində Qadınlar arasında IV Dünya Çempionatı, 2008-ci il 22-29 Noyabr tarixlərində Çinin Ninqbo şəhərində Qadınlar arasında V Dünya Çempionatı, 2010-cu il 9-18 Sentyabr tarixlərində Qadınlar arasında VI Dünya Çempionatı keçirildi. Azərbaycan yığma komandası bu yarışların heç birində iştirak etmədi.

Qadınlardan ibarət Azərbaycan yığma komandasının Qadınlar arasında VII Dünya Çempionatında iştirakı. 2012-ci il 11-19 May tarixləri arasında Çinin Qinhuanqdao Şəhərində Qadınlar arasında Dünya Çempionatı keçirildi.

60 kiloqram çəki dərəcəsində çıxış edən boksçumuz Ayzanat Hacıyeva 32/1 final mərhələdə hindistanlı boksçu Sarita Devi Laişramla görüşdə 11:27 hesabı ilə məğlub oldu.

75 kiloqram çəki dərəcəsində yarışlara qatılan Yelena Vıstropova ilk görüşdə Belarusiya təmsilçisi Viktoriya Kebikovanı 18:7 hesabı ilə, 16/1 final mərhələdə braziliyalı Roselli Feytrosanı 17:12 hesabı ilə, 8/1 final mərhələdə Rumıniya boksçusu Luminita Turçini təmiz qələbə ilə, 4/1 final mərhələdə Ukrayna təmsilçisi

Liliya Durnyevanı 12:5 hesabı ilə, yarımfinalda isə İsveç boksçusu Anna Loureli 16:15 hesabı ilə məğlub edərək finala vəsiqə qazandı. Finalda İngiltərə boksçusu Savanna Marşal ilə qarşılaşan təmsilçimiz 15:17 hesabı ilə məğlub olaraq Dünya Çempionatının gümüş medalını qazandı.

Qadınlardan ibarət Azərbaycan yığma komandasının Qadınlar arasında VIII Dünya Çempionatında iştirakı. 2014-cü il 16-24 Noyabr tarixlərində Cənubi Koreya Respublikasının Jeju şəhərində Qadınlar arasında Dünya Çempionatı keçirildi.

48 kiloqram çəki dərəcəsində çıxış edən Əzizə Abbasova 16/1 final mərhələsi çərçivəsində Rusiya boksçusu Zoya İsayeva ilə görüşdə məğlub oldu.

54 kiloqram çəki dərəcəsində çıxış edən boksçumuz Anna Əlimərdanova 16/1 final mərhələdə Meksika boksçusu Denia sosanı 3:0 hesabı ilə məğlub etdi. Növbəti mərhələyə vəsiqə qazanan idmançımız burada irland Mişela Volş üzərində 2:1 hesabı ilə qələbə qazandı. 4/1 final mərhələdə Türkiyə boksçusu Ayşe Taş ilə döyüşən həmyerlimiz 0:3 hesabı ilə məğlub olaraq medalın bir addımlığında mübarizəni dayandırdı.

57 kiloqram çəki dərəcəsində çıxış edən Mesxeti Həmzəyeva 16/1 final mərhələdə meksikalı Melisa Eskivelə 0:3 hesabı ilə məğlub oldu.

60 kiloqram çəki dərəcəsində çıxış edən boksçumuz Yana Alekseyevna ilk görüşdə Macarıstan idmançısı Vivien Ksombor üzərində 3:0 hesabı ilə qələbə qazandı. Növbəti mərhələdə Almaniya idmançısı Taşina Buqarı 3:0 hesabı ilə məğlub edən qadın boksçumuz 8/1 final mərhələdə Ukrayna təmsilçisi Yuliya Tsiplakovanı 3:0 hesabı ilə məğlub edərək 4/1 final mərhələsinə adladı. Burada avstraliyalı Şelli Vats üzərində 3:0 hesabı ilə qələbə qazanan boksçumuz yarımfinalda fransız Estelle Mosellini 2:1 hesabı ilə məğlub etdi. Final mərhələsinə yüksələn idmançımız burada irland Keti Teylora 3:0 hesabı ilə məğlub olaraq Dünya Çempionatını gümüş medalla bitirdi.

69 kiloqram çəki dərəcəsində çıxış edən Yelena Vıstropova ilk görüşdə ingilis Steysi Kopland üzərində 3:0 hesablı qələbə qazandı. 8/1 final mərhələdə Tay-Pey idmançısı Çen Çia-Çun üzərində 3:0 hesabı ilə qələbə qazanan boksçumuz 4/1 final mərhələdə Amerika Birləşmiş Ştatları boksçusu Danyel Volfu 2:1 hesabı ilə məğlub

etdi. Yarım final mərhələdə Panama təmsilçisi Aseyna Bilona 1:2 hesabı ilə məğlub oldu və Dünya Çempionatının bürünc medalına yiyələndi.

75 kiloqram çəki dərəcəsində çıxış edən həmyerlimiz Leyla Cavadova 16/1 final mərhələdə avstraliyalı Key Skota 2:1 hesabı ilə məğlub oldu.

81+ kiloqram çəki dərəcəsində çıxış edən boksçumuz Aynur Rzayeva 8/1 final mərhələdən yarışlara qoşuldu və ilk görüşdə Rusiya boksçusu Zemfira Məhəmmədəliyevaya məğlub oldu.

Qadınlardan ibarət Azərbaycan yığma komandasının Qadınlar arasında IX Dünya Çempionatında iştirakı. 2016-cı il 19-27 May tarixlərində Qazaxıstanın Astana şəhərində Qadınlar arasında Dünya Çempionatı keçirildi.

48 kiloqram çəki dərəcəsində yarışlara qatılan Əzizə Abbasova 16/1 final mərhələdə koreyalı Bayk Ço-Ronq ilə görüşdən 0:3 hesablı məğlubiyyətlə ayrıldı.

51 kiloqram çəki dərəcəsində çıxış edən boksçumuz Anna Əlimərdanova 16/1 final mərhələdə Amerika Birləşmiş Ştatları boksçusu Virciniya Fuçs üzərində 2:1 hesabı ilə qələbə qazandı. 8/1 final mərhələdə Böyük Britaniya təmsilçisi Nikola Adamsla görüşü 0:3 hesablı məğlubiyyətlə bitirdi.

57 kiloqram çəki dərəcəsində çıxış edən boksçumuz Mesxeti Həmzəyeva ilk görüşdə Kanada təmsilçisi Sabrina Oubin ilə görüşü 2:1 hesabı ilə qalib bitirdi. 4/1 final mərhələsinə yüksələn idmançımız burada bolqarıstanlı Denitsa Yeliseyevaya 0:3 hesabı ilə məğlub olaraq Dünya Çempionatını medalsız başa çatdırdı.

60 kiloqram çəki dərəcəsində çıxış edən boksçumuz Yana Alekseyevna ilk görüşdə Tacikistan bokçusu Məvzunə Çorayevanı 3:0 hesabı ilə məğlub etdi. 8/1 final mərhələdə Yeni Zelandiya boksçusu Aleksis Pritçardı 2:1 hesabı ilə məğlub edən boksçumuz 4/1 final mərhələdə fransız Estelle Moselli ilə görüşdə 0:3 hesabı ilə məğlub olaraq medalın bir addımlığında Çempionatı tərk etdi.

64 kiloqram çəki dərəcəsində çıxış edən boksçumuz Ayzanat Hacıyeva 16/1 final mərhələdə Amerika Birləşmiş Ştatları təmsilçisi Jajayra Qonzales ilə görüşdə məğlub oldu.

69 kiloqram çəki dərəcəsində çıxış edən boksçumuz Məryəm Cəbrayılova Monqolustan təmsilçisi Erdenetuya Enxbatar üzərində 2:1 hesabı ilə qələbə

qazanaraq 4/1 final mərhələsinə yüksəldi. Burada Çin boksçusu Qu Honq ilə döyüşən həmyerlimiz 0:3 hesabı ilə məğlub oldu.

75 kiloqram çəki dərəcəsində iştirak edən Yelena Vıstropova Böyük Britaniya təmsilçisi Savanna Marşala 0:3 hesabı ilə məğlub oldu.

81 kiloqram çəki dərəcəsində çıxış edən boksçumuz Alina Hacıyeva Qabon Respublikasının boksçusu Şimene Assa Molimba ilə görüşdə məğlub oldu.

81+ kiloqram çəki dərəcəsində çıxış edən boksçumuz Aynur Rzayeva yarışa 8/1 final mərhələdən qoşuldu və ilk turda Hindistan boksçusu Sima Punyaya 3:0 hesabı ilə məğlub oldu.

2018-ci il 15-24 Noyabr tarixlərində Hindistanın Yeni Dehli şəhərində Qadınlar arasında X Dünya Çempionatı. 2019-cu il 3-13 Oktyabr tarixlərində Rusiyanın Ulan-Ude şəhərində qadınlar arasında XI Dünya Çempionatı keçirildi. Azərbaycanın qadın boksçuları son iki Dünya Çempionatında iştirak etməmişlər. (38)

# II FƏSİL

# Azərbaycan boksçularının Dünya Çempionatları və Birinciliklərində müxtəlif yaş qrupları üzrə iştirakının müqayisəli təhlili

## 2.1. Dünya Çempionatlarında iştirak etmiş kişilərdən ibarət yığma komandanın iştirakının müqayisəli təhlili

Azərbaycanın qatıldığı Dünya Çempionatlarından 1993-2001-ci illər ərzində 12 çəki dərəcəsi, 2003-2009-cu illər ərzində 11 çəki dərəcəsi, 2011-2017-ci illər ərzində 10 çəki dərəcəsi, 2019-cu ildə isə 8 çəki dərəcəsi üzrə döyüşlər keçirilmişdir. Azərbaycan idmançıları Dünya Çempionatında indiyədək 58 idmançı ilə 97 dəfə çıxış etmişlər. Azərbaycan boksçuları bu yarışlarda 6 qızıl, 4 gümüş, 9 bürünc olmaqla ümumilikdə 19 medal qazanmışlar. Azərbaycan yığma komandası 2005-ci il Çində, 2007-ci il ABŞ-da, 2013-cü il Qazaxıstanda və 2019-cu il Rusiyada keçirilən Dünya Çempionatlarında tam heyətlə çıxış etmişdir. Bu yarışlarda ən çox iştirak edən idmançılar Əli İsmalyılov (4 dəfə), Cavid Tağıyev (4 dəfə), Elvin Məmişzadə (4 dəfə) olmuşdur.

Diaqram 2.1

Kişilərdən ibarət Azərbaycan yığma komandasının Dünya Çempionatlarında iştirakının müqayisəli təhlili



Diaqram 2.2

Dünya Çempionatlarında iştirak edən boksçuların sayının inkişaf dinamikasının təhlili




Diaqram 2.3

Kişilərdən ibarət Yığma komandanın Dünya Çempionatlarında qazandığı medalların faizlə nisbəti.




VII Dünya Çempionatı. Finlandiyaın Tampere şəhərində keçirilən Dünya Çempionatına Azərbaycan yığma komandası 3 boksçu ilə qatıldı. Müstəqillik qazandıqdan sonra kişilər arasında qatıldığımız ilk boks üzrə Dünya Çempionatında medal qazanmaq mümkün olmadı.

VIII Dünya Çempionatı. Almaniyanın paytaxtı Berlin şəhərində keçirilən Dünya Çempionatında Azərbaycan yığma komandası 5 idmançı ilə çıxış etdi və bu yarışda da medal qazana bilmədi.

IX Dünya Çempionatı. Macarıstanın paytaxtı Budapeşt şəhərində keçirilən Dünya Çempionatında Azərbaycan yığma komandası çıxış etmədi.

X Dünya Çempionatı. Amerika Birləşmiş Ştatlarının Xyuston şəhərində keçirilən Dünya Çempionatına 2 çəki dərəcəsində çıxış etməyimizə baxmayaraq müstəqillik dövründə ilk medalımız məhz bu yarışda qazanıldı. Bu, Əli İsmayılovun qazandığı bürünc medal oldu.

XI Dünya Çempionatı. Şimali İrlandiyanın Belfast şəhərində keçirilən Dünya Çempionatında Azərbaycan yığma komandası 7 çəki dərəcəsində mübarizə aparmasına baxmayaraq medal qazana bilmədi.

XII Dünya Çempionatı. Taylandın Banqkok şəhərində keçirilən yarış Azərbaycan boksçuları üçün kifayət qədər uğurlu alındı. Belə ki, 9 çəki dərəcəsində mübarizə aparan həmyerlilərimiz 1 qızıl 2 bürünc medal qazandılar.

XIII Dünya Çempionatı. Çinin Myanyanq şəhərində keçirilən yarışda Azərbaycan yığma komandası tam heyətlə çıxış etdi. 11 idmançıdan 3-ü 2 gümüş 1 bürünc olmaqla medal qazandı.

XIV Dünya Çempionatı. Amerika Birləşmiş Ştatlarının Çikaqo şəhərində keçirilən Dünya Çempionatında Azərbaycan yığma komandası tam heyətlə çıxış etməsinə baxmayaraq yalnız 1 bürünc medal qazana bildi.

XV Dünya Çempionatı. İtaliyanın Milan şəhərində keçirilən Dünya Çempionatına 10 nəfər gənc heyətlə yollanan Azərbaycan yığma komandası medalsız geri qayıtdı.

XVI Dünya Çempionatı. Azərbaycanın paytaxtı Bakı şəhərində keçirilən yarışda boksçularımız 9 çəki dərəcəsində mübarizə apardı. XVI Dünya Çempionatında yığma komandamız 1 qızıl və 1 bürünc medal qazandı.

XVII Dünya Çempionatı. Qazaxıstanın Almata şəhərində keçirilən Dünya Çempionatında Azərbaycan idmançıları tam heyətlə yollandılar və 2 qızıl və 1 bürünc medalla müstəqillik tarixində ən uğurlu çıxışlarından birini etdilər.

XVIII Dünya Çempionatı. Qətərin Doha şəhərində keçirilən yarışda Azərbaycan yığma komandası 8 çəki dərəcəsində çıxış etdi və öz tarixində medalların sayı baxımından ən uğurlu yarışını keçirtdi. Boksçularımız yarışı 1 qızıl 1 gümüş və 2 bürünc medalla başa vurdu.

XIX Dünya Çempionatı. Almaniyanın Hamburq şəhərində keçirilən Dünya Çempionatında 4 çəki dərəcəsində çıxış edən boksçularımız 1 qızıl və 1 bürünc medal qazandı.

XX Dünya Çempionatı. Rusiyanın Yekaterinburq şəhərində keçirilən Dünya Çempionatına Azərbaycan Yığma komandası gənc heyətlə yollandı. Tam heyətlə çıxış etməyinə baxmayaraq boksçularımız medal qazana bilmədi.

## 2.2. Dünya Birinciliyində iştirak etmiş Gənclərdən ibarət yığma komandanın iştirakının müqayisəli təhlili

Gənclərdən ibarət Azərbaycan yığma komandasının iştirak etdiyi yarışlardan 1992-2002-ci illərdə 12 çəki dərəcəsində, 2004-2010-cu illərdə 11 çəki dərəcəsində, 2012-2018-ci illərdə 10 çəki dərəcəsində mübarizə apardı. Gənclərdən ibarət yığma komandamız 2010-cu il Azərbaycanda və 2014-cü il Bolqarıstanda keçirilən Dünya Birinciliyində tam heyətlə çıxış edib. Azərbaycanın gənc boksçuları Dünya Birinciliklərində 82 idmançı ilə 83 dəfə çıxış etmişlər. Gənclərdən ibarət Azərbaycan yığma komandası bu yarışlarda 3 qızıl, 12 bürünc olmaqla ümumilikdə 15 medal qazanmışlar. Gənc boksçulardan yalnız Emil Məhərrəmov 2 dəfə Gənclərin Dünya Birinciliyində çıxış edib.

Diaqram 2.4

Gənclərdən ibarət Azərbaycan yığma komandasının Dünya Birinciliklərindəki iştirakının müqayisəli təhlili




Diaqram 2.5

Dünya Birinciliklərində iştirak edən gənc boksçuların sayının inkişaf dinamikasının təhlili




Gənclərin VII Dünya Birinciliyi. Kanadanın Monreal şəhərində keçirilən yarışda Azərbaycan yığma komandası 4 çəki dərəcəsində çıxış etdi və 1 bürünc medal qazandı.

Diaqram 2.6

Gənclərdən ibarət Yığma komandanın Dünya Birinciliklərində qazandığı medalların faizlə nisbəti




Gənclərin VIII Dünya Birinciliyi. Türkiyənin İstanbul şəhərində keçirilən Gənclərin Dünya Birinciliyində Azərbaycan yığma komandası 8 nəfərlik heyətlə çıxış etməsinə baxmayaraq medal qazana bilmədi.

Gənclərin IX Dünya Birinciliyi. Kubanın Havana şəhərində keçirilən yarışa Azəbaycan yığma komandası qatılmadı.

Gənclərin X Dünya Birinciliyi. Argentinanın Buenos Ayres şəhərində keçirilən Dünya Birinciliyində də Azərbaycan boksçuları iştirak etmədilər.

Gənclərin XI Dünya Birinciliyi. Macarıstanın Budapeşt şəhərində keçirilən yarışa 7 idmançı ilə qatıldı. 6 illik fasilədən sonra Dünya Birinciliyinə qatılan boksçularımız 1 qızıl 1 bürünc medal qazandı.

Gənclərin XII Dünya Birinciliyi. Kubanın Santiyaqo De Kuba şəhərində keçirilən yarışda Azərbaycan komandası 4 idmançı ilə çıxış etdi və medal qazana bilmədi.

Gənclərin XIII Dünya Birinciliyi. Cənubi Koreyanın Jeju şəhərində keçirilən Dünya Birinciliyində 8 boksçu ilə qatılan yığma komandamız 4 bürünc medal qazandı.

Gənclərin XIV Dünya Birinciliyi. Mərakeşin Aqadir şəhərində keçirilən yarışda boksçularımız 10 nəfərlik heyətlə çıxış etdi və 2 bürünc medal qazandı.

AİBA Gənclərin I Dünya Birinciliyi. Meksikanın Quadalaraja şəhərində keçirilən yarışa idmançılarımız qatılmadı. Bu yarışdan etibarən yarışın adı AİBA Gənclərin Dünya Birinciliyi adlandırıldı.

AİBA Gənclərin II Dünya Birinciliyi. Azərbaycanın paytaxtı Bakı şəhərində keçirilən yarışda boksçularımız tam heyətlə çıxış etdi və 2 qızıl 1 bürünc medal qazandı.

AİBA Gənclərin III Dünya Birinciliyi. Ermənistanın paytaxtı İrəvan şəhərində keçirilən yarışa 7 boksçu ilə yollanan yığma komandamız 1 bürünc medal qazandı. Düşmən ölkənin paytaxtında Azərbaycan bayrağını qaldıran idmançmız Pərviz Bağırov oldu.

AİBA Gənclərin IV Dünya Birinciliyi. Bolqarıstanın Sofiya şəhərində keçirilən yarışda yığma komandamız tam heyətlə çıxış etdi və 2 bürünc medal qazandı.

AİBA Gənclərin V Dünya Birinciliyi. Rusiya Federasiyasının Sankt Peterburq şəhərində keçirilən yarışda 9 çəki dərəcəsində döyüşən boksçularımızdan heç biri medal qazana bilmədi.

AİBA Gənclərin VI Dünya Birinciliyi. Macarıstanın Budapeşt şəhərində keçirilən son Dünya Birinciliyinə 5 idmançıdan ibarət heyətlə yollanan yığma komandamız medalsız geri qayıtdı.

## 2.3. Dünya Birinciliklərində iştirak etmiş yeniyetmələrdən ibarət yığma komandanın iştirakının müqayisəli təhlili

Yeniyetmələrdən ibarət Azərbaycan yığma komandasının iştirak etdiyi yarışlarda 2001-2002-ci illərdə 12 çəki dərəcəsi, 2003-2015-cü illərdə 13 çəki dərəcəsində çıxış etdilər. Azərbaycanın yeniyetmə boksçuları Dünya Birinciliklərində 85 idmançı ilə 94 dəfə çıxış etmişlər. Yeniyetmələrdən ibarət yığma komandamız bu yarışlarda 7 qızıl, 12 gümüş, 20 bürünc olmaqla ümumilikdə

39 medal qazanmışlar. Ümumilikdə Yeniyetmələrin Dünya Birinciliyində yalnız Elçin Əlizadə 3 dəfə çıxış etdi.

Diaqram 2.7

Yeniyetmələrdən ibarət Azərbaycan yığma komandasının Dünya Birincilindəki iştirakının müqayisəli təhlili




Yeniyetmələr arasında I Dünya Birinciliyi. Azərbaycanın paytaxtı Bakı şəhərində keçirilən yarışda yığma komandamız 12 boksçu ilə təmsil olundu. Bu yarışda idmançılarımız 2 qızıl 4 gümüş 4 bürünc medal qazandı.

Yeniyetmələr arasında II Dünya Birinciliyi. Macarıstanın Keçkemet şəhərində keçirilən mundialda yığma komandamız 1 qızıl 2 bürünc medal qazandı. İdmançıların sayı barədə məlumat yoxdur.

Yeniyetmələr arasında III Dünya Birinciliyi. Rumınıyanın Buxarest şəhərində keçirilən birincilikdə Azərbaycan yığma komandası 9 çəki dərəcəsində çıxış edib. Boksçularımız bu yarışdan 1 qızıl 1 gümüş 3 bürünc medalla qayıdıb.

Diaqram 2.8

Dünya Birinciliklərində iştirak edən yeniyetmə boksçuların sayının inkişaf dinamikasının təhlili




Diaqram 2.9

Yeniyetmələrdən ibarət Yığma komandanın Dünya Birinciliklərində qazandığı medalların faizlə nisbəti




Yeniyetmələr arasında IV Dünya Birinciliyi. İngiltərənin Liverpul şəhərində keçirilən Dünya Çempionatına yollanan 10 idmançı 1 gümüş 4 bürünc medalla vətənə döndülər.

Yeniyetmələr arasında V Dünya Birinciliyi. Türkiyənin İstanbul şəhərində keçirilən yarışa 12 nəfər heyətlə yollanan yığma komandamız 1 gümüş 2 bürünc medal qazandı.

Yeniyetmələr arasında VI Dünya Birinciliyi. İkinci dəfə Azərbaycanın Bakı şəhərində keçirilən yarışda tam heyətlə çıxış edən boksçularımız 2 qızıl 2 gümüş 2 bürünc medal qazandı.

AİBA Yeniyetmələrin I Dünya Birinciliyi. Ermənistanın paytaxtı İrəvan şəhərində keçirilən yarışda Azərbaycan yığma komandası iştirak etmədi.

AİBA Yeniyetmələrin II Dünya Birinciliyi. Qazaxıstanın Astana şəhərində keçirilən yarışa Azərbaycan 12 boksçu ilə yollandı və yalnız 1 gümüş medal qazandı.

AİBA Yeniyetmələrin III Dünya Birinciliyi. Ukraynanın Kiyev şəhərində keçirilən yarışda Azərbaycan yığma komandası 12 çəki dərəcəsində çıxış etdi. Bu yarışdan 2 gümüş 2 bürünc medal qazanıldı.

AİBA Yeniyetmələrin IV Dünya Birinciliyi. Rusiyanın Sankt-peterburq şəhərində keçirilən yarışda Azərbaycan yığma komandası 12 çəki dərəcəsində çıxış edərək 1 qızıl 1 bürünc medal qazandı.

### 2.4. Dünya Çempionatlarında iştirak etmiş qadınlardan ibarət yığma komandanın iştirakının müqayisəli təhlili

Azərbaycanın qadınlardan ibarət boks üzrə yığma komandası 2001-2010-cu illər arasında keçirilmiş Dünya Çempionatlarına qatılmadı. 2012-2014-2016-cı illərdə Dünya çempionatlarında iştirak edən qadınlardan ibarət boks üzrə Azərbaycan yığma komandası hər 3 yarışda 10 çəki dərəcəsində mübarizə apardı.

Qadınlar arasında VII Dünya Çempionatı. İlk dəfə 2012-ci ildə Çində keçirilən Dünya Çempionatında 2 idmançı ilə qatılan qadın boksçularımız 1 gümüş medal qazandı.

Diaqram 2.10

Qadınlardan ibarət Azərbaycan yığma komandasının Dünya Çempionatlarındakı iştirakının müqayisəli təhlili.




Qadınlar arasında VIII Dünya Çempionatı. 2014-cü il Cənubi Koreyada keçirilən Dünya Çempionatında 7 çəki dərəcəsində çıxış edən yığma komandamız 1 gümüş və 1 bürünc medal qazandı.

Qadınlar arasında IX Dünya Çempionatı. 2016-cı ildə Qazaxıstanda keçirilən Dünya Çempionatında 9 idmançı ilə qatılan boksçularımız medalsız qaldı.

2018 və 2019-cu illərdə keçirilən Dünya Çempionatlarında da qadınlardan ibarət Azərbaycan yığma komandası çıxış etmədi.

# NƏTİCƏLƏR

1. Əldə edilmiş bütün məlumatları araşdırarkən belə qənaətə gəlmək olar ki, Azərbaycan boksçuları Dünya Çempionatlarında həm say, həm də keyfiyyət baxımından dalğavari nəticə göstərmişlər.
2. Tədqiqat nəticəsində məlum olmuşdur ki, 225 idmançı ilə 274 dəfə çıxış edən kişi cinsli boksçularımız 16 qızıl, 16 gümüş və 41 bürünc olmaqla ümumilikdə 73 medal qazanmışlar.
3. Tədqiqatlar göstərir ki, qadınlardan ibarət yığma komandamız yalnız 3 Dünya Çempionatında iştirak etmiş və bu yarışlarda 2 gümüş və 1 bürünc medal qazanmışlar.
4. Son illər ərzində istənilən yaş qrupu üzrə kəmiyyət baxımından nəzərəçarpacaq geriləmə olmasa da, kəmiyyət baxımından xeyli zəifləmə müşahidə olundu.

# ƏDƏBİYYAT

1. A.Abiyev, T.Babanlı, Q.Mehdiyev /Azərbaycan boksu 80 ildə/ Bakı 2004
2. Abiyev A., Quliyev D. Helsinkidən başlayan yol. Azərbaycan Milli Olimpiya Komitəsinin yaranmasının 10 illiyinə həsr edilir. Bakı: Adiloğlu, 2002, 96 s.
3. Azərbaycan yığması boks üzrə dünya çempionatının ümumkomanda hesabında üçüncü yeri tutub // Azərbaycan qəzeti, 2015, 16 Oktyabr, s.3
4. Babanlı T. Azərbaycan boksunun unudulmaz simaları. 1-ci hissə // Olimpiya dünyası, 2015, 4-7 sentyabr, s. 5
5. Babanlı T. Azərbaycan boksunun unudulmaz simaları. 2-ci hissə // Olimpiya dünyası, 2015, 11-14 sentyabr, s. 5
6. Babanlı T. Azərbaycan boksunun unudulmaz simaları. 3-cü hissə // Olimpiya dünyası, 2015, 15- 17 sentyabr, s. 5
7. Babanlı T. Azərbaycan boksunun unudulmaz simaları. 4-cü hissə // Olimpiya dünyası, 2015, 6-12 noyabr, s. 4
8. Babanlı T. Azərbaycan boksunun unudulmaz simaları. 5-ci hissə // Olimpiya dünyası, 2015, 8-10 dekabr, s. 4
9. Babanlı T. Azərbaycan boksunun unudulmaz simaları. 6-cı hissə // Olimpiya dünyası, 2015, 15-17 dekabr, s. 5
10. Babanlı T. Azərbaycan boksunun unudulmaz simaları. 7-ci hissə // Olimpiya dünyası, 2016, , 8-11 yanvar, s. 4
11. Babanlı T. Azərbaycan boksunun unudulmaz simaları. 8-ci hissə // Olimpiya dünyası, 2016, 2-8 fevral, s. 5
12. Bakıda keçirilən boks üzrə XVI dünya çempionatı başa çatmışdır: Prezident İlham Əliyev çempionatın final mərhələsinin qarşılaşmalarını izləmişdir // Azərbaycan qəzeti, 2011, 9 oktyabr, s.1
13. Bayramov O. Azərbaycan boksçularının tarixi nailiyyəti: dünya çempionatında 2 qızıl və 1 bürünc medal // Xalq qəzeti, 2013, 29 oktyabr, s.6
14. Əliyev A. Əsgərov N. Müstəqil Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişaf tarixi (1991-2006): Dərs vəsaiti. Bakı: 2007. 187 s.
15. Milan şəhərində keçiriln boks üzrə XV dünya çempionatı başa çatmışdır // Azərbaycan qəzeti, 2009, 13 sentiyabr, s. 3
16. Александр Беленький / Бокс Большие чемпионы/ 2006